**AZƏRBAYCAN RESPUBLİKASI**

**ALİ MƏHKƏMƏSİ**

# Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının 2021-ci il üzrə fəaliyyətinə dair

# H E S A B A T I

# M Ü N D Ə R İ C A T

**Ali Məhkəmənin Kommersiya Kollegiyası ............................................................3**

2021-ci ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyası tərəfindən görülmüş işlərə dair məlumat ..........................................................................................3

Apellyasiya məhkəmələrinin icraatında olan kommersiya mübahisələrinə dair işlərin hesabatı...........................................................................................................................62

Ölkə üzrə birinci instansiya məhkəmələrinin fəaliyyətinə dair hesabat...............................85

# ALİ MƏHKƏMƏNİN KOMMERSİYA KOLLEGİYASI

## 1.1. 2021-ci ildə Ali Məhkəmənin Kommersiya Kollegiyası tərəfindən görülmüş işlərə dair

### Məlumat

1. Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli 604 saylı Fərmanının 4-cü bəndinə əsasən mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının effektivliyinin artırılması, xüsusən sahibkarlıqla bağlı məsələlərin məhkəmələrdə daha sürətli və səmərəli həllinin təmin edilməsi məqsədilə mülki prosessual qanunvericiliyin kompleks şəkildə birgə təhlil edilib, bu sahədə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla onun təkmilləşdirilməsi barədə təkliflərin Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi Azərbaycan Respublikasının Ali Məhkəməsinə, apellyasiya instansiyası məhkəmələrinə tövsiyə edilmişdir. Mülki prosessual qanunvericiliyin sistemli şəkildə təhlili məqsədilə Azərbaycan Respublikası Ali Məhkəməsində Kommersiya Kollegiyasının hakimlərinin də daxil olduğu işçi qrup yaradılmış, məhkəmənin daha səmərəli fəaliyyətinə mane olan, ədalət mühakiməsinin effektivliyinə təsir edən, qanunvericilik qaydasında tənzimləməni zəruri edən məsələlər müzakirə olunmuşdur.

Bu sahədə aparılan məqsədyönlu fəaliyyətin nəticəsində 2021-ci ilin 9 iyul tarixində Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə (bundan sonra - "MPM") dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu qəbul olunmuş, apellyasiya və kassasiya şikayətlərinin mülki prosessual qanunvericiliyin tələblərinə uyğun tərtib edilməsinin təmini məqsədilə şikayətlərin forması MPM-ə 2 və 3 saylı Əlavələr şəklində təsdiq edilmişdir. Müvafiq Qanun 2021-ci il 1 oktyabr tarixindən qüvvəyə minmişdir. MPM-ə edilmiş ümumilikdə 156 dəyişiklik mülki və kommersiya mübahisələri üzrə icraatı kompleks şəkildə əhatə etmişdir. Mülki prosessual qanunvericiliyə edilmiş dəyişiklikliyə uyğun olaraq, artıq 2021-ci ilin 01 oktyabr tarixindən kommersiya mübahisələri üzrə daxil olan kassasiya şikayətlərinə ilk dəfə yazılı icraat qaydasında baxılmasına başlanılmış, kassasiya şikayətlərinin mümkünlüyü yoxanılarkən, şikayətlərin MPM-in müəyyən etdiyi məzmunda və yeni formada verilməsinə diqqət artırılmışdır.

2. "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 363-VIQD nömrəli Qanununun 2021-ci il 1 oktyabr tarixdən qüvvəyə minməsi ilə əlaqədar Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun bəzi Qərarlarına əlavə və dəyişikliklərin edilməsinə ehtiyac yarandığından, 2021-ci il 24 dekabr tarixində "Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun bəzi qərarlarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarı qəbul edilmişdir.

3. Məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini və normativ hüquqi aktların tətbiqi ilə bağlı hüquqi mövqeyinin proqnozlaşdırılan olmasını təmin etmək məqsədilə MPM-in 418-1-ci maddəsində təsbit edilmiş yeni mexanizmə müraciət edilərək iki məsələ üzrə Kommersiya və Mülki Kollegiyalarının Qərardadı qəbul edilmişdir;

1) "Mülki qanunvericiliyin lizinq müqaviləsinə dair münasibətləri tənzimləyən bəzi normalarının tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsinə dair" 2021-ci il 04 iyun tarixli qərardad,

2) "İcra icraatı çərçivəsində borclunun əmlakının hərracdan satılması qaydası ilə bağlı qanunvericiliyin tətbiqinə dair" 2021-ci il 24 noyabr tarixli qərardad.

4. Ali Məhkəmənin Plenumunun "İşlərin ümumi və yaxud kommersiya məhkəmələrinə aidiyyətinin müəyyən edilməsi, məhkəmə aidiyyəti ilə bağlı mübahisələrə və məhkəmələr arasında yaranan fikir ayrılıqlarına baxılmasının xüsusiyyətləri haqqında" 2020-ci il 18 sentyabr tarixli Qərarının tətbiqi ilə bağlı ilk dəfə məhkəmələrin fəaliyyətinin 2020-ci ilin 1 noyabr tarixindən 2021-ci ilin 1 noyabr tarixinədək monitorinqinin aparılmasına dair qərar qəbul edilmişdir. Həmin qərarın icrası qaydasında "Mülki və kommersiya işləri üzrə Anket" hazırlanaraq məhkəmələrə göndərilmiş, həmin anketin kassasiya instansiyası məhkəməsinə

aid hissəsi isə müvafiq kollegiyalara təqdim edilmişdir. Anketin Kommersiya Kollegiyasının hakimləri tərəfindən qarışıq məhkəmə tərkibində məhkəmə aidiyyətinə dair işlərə baxılarkən doldurulmuş hissəsi monitorinqin nəticələrinin təhlili zamanı nəzərə alınması məqsədilə, "Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili Şöbəsi"nə təqdim edilmişdir.

5. 2021-ci ilin birinci yarısında məhkəmələrdə kommersiya mübahisələrinə baxılması vəziyyətinə dair ətraflı hesabat hazırlanmışdır. Həmin hesabatda bütün məhkəmə instansiyaları üzrə kommersiya məhkəmələrinin iş yükü, baxdığı mübahisələrin kateqoriyası, məhkəmə aktlarının sabitliyi ilə bağlı məsələlər ətraflı təhlil olunmuşdur.

6. Hesabat dövrü ərzində Konstitusiya Məhkəməsinin icraatında olan aşağıdakı 2 iş üzrə yazılı mülahizələr verilmişdir;

1) "Şərq-Qərb" ASC-nin Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya kollegiyasının 2021-ci il 02 fevral tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair",

2) "AG Global Lojistik" MMC-nin Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının 2020-ci il 09 fevral tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" işlər üzrə yazılı mülahizələr təqdim edilmişdir.

7. 2021-ci ilin dekabrında fəaliyyətlərinin dövri qiymətləndirilməsi nəzərdə tutulan birinci instansiya məhkəmələrinin hakimlərinin fəaliyyətlərinin qiymətləndirilməsinə dair Rəylər hazırlanaraq, Məhkəmə-Hüquq Şurasına təqdim edilmişdir.

8. Hər hansı işin eyni instansiyada bir neçə dəfə araşdırılması ədalət mühakiməsinin səmərəliliyinə və keyfiyyətinə təsir edən mühüm amil olduğundan, Kommersiya Kollegiyasında apellyasiya məhkəməsinin iki və daha artıq ləğv edilmiş bütün qərarlarının xüsusi meyarlar üzrə öyrənilməsi işi aparılmış, məhkəmə aktlarının təkrar-təkrar ləğv edilməsinin səbəbləri təhlil edilmişdir. Müvafiq təhlillər zamanı qarşıya qoyulan əsas hədəf, məhkəmə aktlarının ləğv səbəblərinin müəyyənləşdirilməsi, belə halların azaldılması, o cümlədən bir işə iki və ya daha artıq kassasiya qaydasında baxılması hallarının qarşısının alınmasından ibarət olmuşdur.

9. Hesabat dövründə "Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili Şöbəsi" tərəfindən "Əqli mülkiyyət hüquqlarının müdafiəsi üzrə 2019-2020-ci illərdə məhkəmələr tərəfindən baxılmış işlər üzrə məhkəmə təcrübəsinin ümumiləşdirilməsi (kommersiya, inzibati və mülki işlər üzrə) aparılmışdır. Ümumiləşdirmənin nəticələri Azərbaycan Respublikası Nazirlər Kabineti yanında "Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Müqavilələrin icrası, mübahisələrin həlli, müəssisənin bağlanması və müflisləşmə, məhkəmə sistemi və hüququn aliliyi" işçi qrupuna təqdim edilmişdir.

Həmçinin, "Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanı rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılmasına dair" ərizələr üzrə qanunvericiliyin tələblərinə əməl edilməsi təcrübəsinin analitik təhlili və "2020-ci ilin II yarım illiyində respublikanın rayon (şəhər) və kommersiya məhkəmələri tərəfindən iddianı təmin etmə tədbirlərinin tətbiqinə dair ərizələrə baxılması ilə əlaqədar məhkəmə təcrübəsinin ümumiləşdirilməsi aparılmışdır.

10. 2021-ci il ərzində Kommersiya Kollegiyasının hakimləri videokonfrans formatında Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) tərəfindən təşkil edilmiş "Məhkəmə idarəetməsi sahəsində" Təlimçilər üçün Təlimlərdə, eləcə də Avropa İttifaqının Azərbaycan Respublikası Ədliyyə Akademiyası ilə birgə həyata keçirdiyi "Azərbaycanda mübahisələrin alternativ həlli üzrə xidmətlərin və ixtisaslaşdırılmış məhkəmələrin daha da inkişaf etdirilməsinə dəstək" Layihəsinin icrasında və yekunlaşmasında fəal iştirak etmişlər. Həmin layihə çərçivəsində keçirilən təlimlərdə kommersiya mübahisələrinin həlli üzrə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsinə xüsusi diqqət göstərilmiş, bununla bağlı Kommersiya Kollegiyasının hakimi Bəhram Məmmədli 2021-ci il 21-27 noyabr tarixlərində Xorvatiyanın Zaqreb şəhərində işgüzar səfərdə olmuşdur.

## 1.2. 2021-ci ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının icraatında olmuş işlər və onların 2020-ci illə müqayisəli təhlili

2021-ci ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya kollegiyasının icraatında 762 işdən 83 iş (10,9%) 2020-ci ildən qalıq keçmiş, 679 iş (89,1%) isə 2021-ci ildə daxil olmuşdur. 2020-ci ilin müvafiq hesabat dövründə isə icraatda 430 işdən 49 iş (11,4%) 2019-cu ildən qalıq keçmiş, 381 iş (88,6%) isə 2020-ci ildə daxil olmuşdur.







2020-ci illə müqayisədə hesabat dövründə Kommersiya Kollegiyasında icraatda olan və daxil olan işlərin sayı aşağıdakı qrafikdə göstərilən qaydada artmışdır.




2021-ci ildə icraatda olan 762 işdən 155 (20,3%) iş qərardad ilə əlaqədar olmuşdur. 2020-ci ilin müvafiq dövründə isə icraatda olan 430 işdən 92 (21,4%) iş qərardad ilə əlaqadar olmuşdur ki, bu da 2021-ci ildə qərardadlar ilə müqayisədə 63 (68,5%) işin artmasını göstərir.

2021-ci ildə icraatda olmuş 762 işdən 494 (64,8%) işə mahiyyəti üzrə baxılmış, 81 iş (10,6%) MPM-in 408-ci maddəsi üzrə baxılmadan geri qaytarılmış, 73 iş (9,6%) məhkəmə aidiyyəti ilə bağlı olmuş, 114 iş (15%) 2022-ci ilin növbəti hesabat dövrünə qalıq keçmişdir.




2020-ci ildə icraatda olmuş 430 işdən 263 (61,2%) işə mahiyyəti üzrə baxılmış, 29 (6,7%) iş Azərbaycan Respublikası MPM-in 408-ci maddəsinə əsasən baxılmadan geri qaytarılmış, 57 (12,56%) iş məhkəmə aidiyyəti ilə bağlı olmuş, 83 (19,3%) iş 2021-ci ilin növbəti hesabat dövrünə qalıq keçmişdir.




Beləliklə, 2020-ci illə müqayisədə hesabat dövründə Kommersiya Kollegiyasında Azərbaycan Respublikası MPM-in 408-ci maddəsinə əsasən baxılmadan geri qaytarılmış və məhkəmə aidiyyəti ilə bağlı olmuş işlərin sayı artmışdır.

2021-ci ildə mahiyyəti üzrə baxılmış 494 işdən 347 iş üzrə (70,2%) məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 136 iş üzrə (27,5%) məhkəmə aktı ləğv edilmiş, o cümlədən 21 (15,44%) iş üzrə yeni qərar qəbul edilmiş, 6 iş üzrə (1,2%) məhkəmə aktı dəyişdirilmiş, 5 iş üzrə (1%) kassasiya icraatına xitam verilmişdir.




2020-ci ildə isə mahiyyəti üzrə baxılmış 263 işdən 174 iş üzrə (66,5%) məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 85 iş üzrə (32,3 %) məhkəmə aktı ləğv edilmiş, 4 iş üzrə (1,5%) məhkəmə aktı dəyişdirilmişdir.



2021-ci ildə baxılan 494 işdən 46 (9,3%) iş qərardad ilə əlaqədar olmuşdur. 2020-ci ilin müvafiq dövründə isə baxılan 263 işdən 16 (6%) iş qərardad ilə əlaqədar olmuşdur ki, bu da 2021-ci ildə qərardadlar ilə 30 (1,8 dəfə) işin artmasını göstərir.




Beləliklə, 2021-ci ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya kollegiyasının icraatında cəmi 762 iş olmuşdur. Onlardan 83 iş (10,9%) 2020-ci ildən qalıq keçmiş, 679 iş (89,1%) isə 2021-ci ildə daxil olmuşdur.

2021-ci ildə Kommersiya Kollegiyasının icraatında olan 762 iş 2020-ci ilin müvafiq dövründə icraatda olan 430 işlə müqayisə edildikdə görünür ki, 2021-ci ildə icraatda olan 332 (77,2%) iş artmışdır.

2021-ci ildə daxil olan 679 iş 2020-ci ilin müvafiq dövründə daxil olan 381 işlə müqayisə edildikdə görünür ki, 2021-ci ilin hesabat dövründə daxil olan işlərin sayında 298 işin (78,2%) artması müşahidə olunur.

2021-ci ildə icraatda olmuş 762 işdən 494 (64,8%) işə mahiyyəti üzrə baxılmış, 81 iş (10,6%) MPM-in 408-ci maddəsi üzrə baxılmadan geri qaytarılmış, 73 iş (9,6%) məhkəmə aidiyyəti ilə bağlı olmuş, 114 iş (15%) 2022-ci ilin növbəti hesabat dövrünə qalıq keçmişdir.

2021-ci ildə mahiyyəti üzrə baxılmış 494 işdən 347 iş üzrə (70,2%) məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 136 iş üzrə (27,5%) məhkəmə aktı ləğv edilmiş, 6 iş üzrə (1,2%) məhkəmə aktı dəyişdirilmiş, 5 iş üzrə (1%) kassasiya icraatına xitam verilmişdir.

2020-ci ildə isə mahiyyəti üzrə baxılmış 263 işdən 174 iş üzrə (66,5%) məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 85 iş üzrə (32,3 %) məhkəmə aktı ləğv edilmiş, 4 iş üzrə (1,5%) məhkəmə aktı dəyişdirilmişdir.

2021-ci ildə baxılmış işlərdən 27,5% məhkəmə aktı ləğv edilmişdir, 2020-ci ilin müvafiq dövründə isə 32,3% məhkəmə aktı ləğv edilmişdir ki, bu da 2021-ci ilin cari hesabat dövründə məhkəmə aktlarının baxılmış işlərə münasibətdə 4,8% məhkəmə aktının ləğvinin azalmasını göstərir.

2021-ci ildə icraatda olan 762 işdən 155 (20,3%) iş qərardad ilə əlaqadar olmuşdur. 2020-ci ilin müvafiq dövründə isə icraatda olan 430 işdən 92 (21,4%) iş qərardad ilə əlaqədar olmuşdur ki, bu da 2021-ci ildə qərardadlar ilə müqayisədə 63 (68,5%) işin artmasını göstərir.

2021-ci ildə baxılan 494 işdən 46 (9,3%) iş qərardad ilə əlaqədar olmuşdur. 2020-ci ilin müvafiq dövründə isə baxılan 263 işdən 16 (6%) iş qərardad ilə əlaqədar olmuşdur ki, bu da 2021-ci ildə qərardadlar ilə 30 (1,8 dəfə) işin artmasını göstərir.

Aşağıdakı diaqramda 2021-ci ildə Kommersiya Kollegiyasının icraatında olmuş işlərin 2020-ci ilə münasibətdə nə qədər azalıb-artması işlərin sayına uyğun göstərilmişdir.




2021-ci ildə Kommersiya Kollegiyasında baxılmış işlər üzrə 6.515 manat dövlət büdcəsinə rüsum ödənilmişdir. 2020-ci ilin müvafiq dövründə isə kollegiyasında baxılmış işlər üzrə 3.690 manat dövlət büdcəsinə rüsum ödənilmişdir. Ali Məhkəmənin Kommersiya Kollegiyasında 2020-2021-ci illərdə baxılmış işlər üzrə dövlət büdcəsinə ödənilmiş rüsum müqayisə edildikdə görünür ki, 2020-ci ilin cari hesabat dövründə dövlət büdcəsinə ödənilmiş rüsum məbləği 2.825 manat (76,6%) artmışdır.

## 1.3. 2021-Cİ İLDƏ BAXILMIŞ İŞLƏRİN KATEQORİYALAR ÜZRƏ BÖLGÜSÜ

| İDDİALARIN KATEQORİYALARI | İŞİN SAYI | FAİZ |
|---|---|---|
| Mülkiyyət hüququ ilə əlaqədar mübahisələr | **6** | **1,21%** |
| Əqli mülkiyyət hüququ ilə əlaqədar mübahisələr | **4** | **1,81%** |
| Torpaq mübahisələri | **8** | **1,62%** |
| Vergi mübahisələri | **3** | **1,61%** |
| Müqavilənin bağlanması, dəyişdirilməsi, ləğv edilməsi, etibarsız hesab edilməsi, məcburi bağlanması | **15** | **3,04%** |
| Alqı-satqı müqaviləsi | **41** | **8,3%** |
| İcarə müqaviləsi | **24** | **4,86%** |
| Borc müqaviləsi | **33** | **6,68%** |
| Kredit müqaviləsi | **107** | **21,66%** |
| Girov | **2** | **4,4%** |
| Daşıma müqaviləsi | **3** | **0,61%** |
| Sığorta müqaviləsi | **9** | **0,61%** |
| Bank əmanəti və bank hesabatı müqavilələri üzrə | **2** | **0,4%** |
| Mülki dövriyyənin iştirakçıları arasında hesablaşmalar; qiymətli kağızlar üzrə öhdəliklər ilə bağlı mübahisələr | **2** | **0,4%** |
| Sair müqavilədən irəli gələn öhdəliklər üzrə mübahisələr | **135** | **27,33%** |
| Mülki hüquq pozuntularından (deliktlərdən) əmələ gələn öhdəliklər üzrə mübahisələr | **3** | **0,61%** |
| Digər mübahisələr | **97** | **19,64%** |
| Cəmi | **494** | **100%** |

## 1.4. LƏĞV EDİLMİŞ MƏHKƏMƏ AKTLARINA DAİR HESABAT

2021-ci ildə ləğv edilmiş 136 məhkəmə aktından 108-i (79,41 %) yenidən baxılması üçün apellyasiya instansiyası məhkəmələrinə göndərilmiş, 21 (15,44 %) iş üzrə yeni qərar qəbul edilmiş, 7 (5,15 %) iş üzrə icraata xitam verilmişdir.




2020-ci ildə isə ləğv edilmiş 85 məhkəmə aktından 70-i (82,35 %) yenidən baxılması üçün apellyasiya instansiyası məhkəmələrinə göndərilmiş, 4 (4,71 %) iş üzrə yeni qərar qəbul edilmiş, 11 (12,94 %) iş üzrə icraata xitam verilmişdir.




Beləliklə, 2021-ci ildə baxılmış işlərdən 27,5% məhkəmə aktı ləğv edilmişdir, 2020-ci ilin müvafiq dövründə isə 32,3% məhkəmə aktı ləğv edilmişdir ki, bu da 2021-ci ilin cari hesabat dövründə 4,8% məhkəmə aktının ləğvinin azalmasını göstərir.

**2021-Cİ İLDƏ LƏĞV EDİLMİŞ MƏHKƏMƏ AKTLARININ DAXİL OLDUĞU APELLYASİYA İNSTANSİYASI MƏHKƏMƏLƏRİ ÜZRƏ BÖLGÜSÜ (136 ləğv)**

Aşağıdakı diaqramda birinci rəqəm ləğv edilmiş məhkəmə aktlarının sayını, ikinci rəqəm isə onların faiz nisbətini bildirir.






## 1.5. 2021-ci ildə Ali Məhkəmənin Kommersiya Kollegiyasında təkrar baxılaraq ləğv edilmiş məhkəmə aktlarına dair

## Hesabat

2021-ci ildə təkrar kassasiya qaydasında mahiyyəti üzrə baxılaraq ləğv edilmiş 23 (16,9%) məhkəmə aktı olmuşdur. Həmin işlərdən 5 (21,7%) iş üzrə yeni qərar qəbul edilmiş, 18 (78,3%) iş üzrə isə işin yenidən araşdırılması üçün təkrar apellyasiya məhkəməsinə göndərilmişdir.




2020-ci ildə isə təkrar kassasiya qaydasında mahiyyəti üzrə baxılmış 52 işdən 28 (53,85 %) iş üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 23 (44,23 %) iş üzrə məhkəmə aktı ləğv edilmiş, 1 (1,92 %) iş üzrə isə məhkəmə aktı dəyişdirilmişdir.




Bununla da, 2021-ci ildə təkrar kassasiya qaydasında mahiyyəti üzrə baxılaraq ləğv edilmiş işlərin cəmi ləğv edilmiş işlərin sayına münasibətdə 10,2% (27,1-16,9) azalmanın olduğunu göstərir.




Təkrar ləğv edilmiş 23 iş üzrə məhkəmə aktlarından 18 iş (78,3%) Bakı Apellyasiya Məhkəməsindən, 2 iş (8,7%) Sumqayıt Apellyasiya Məhkəməsindən, 2 iş (8,7%) Şəki Apellyasiya Məhkəməsindən, 1 iş (4,4%) Gəncə Apellyasiya Məhkəməsindən daxil olmuşdur.




## 2021-ci il ərzində apellyasiya instansiyası məhkəmələri üzrə cəmi ləğv edilmiş işlərə münasibətdə təkrar ləğv edilmiş məhkəmə aktlarının faiz nisbəti;

a) Bakı Apellyasiya Məhkəməsində cəmi ləğv edilmiş 80 işə münasibətdə 22,5%, cəmi baxılmış 315 işə münasibətdə isə 5,7%-ni təşkil edir.

b) Sumqayıt Apellyasiya Məhkəməsində cəmi ləğv edilmiş 12 işə münasibətdə 16,7%, cəmi baxılmış 37 işə münasibətdə isə 5,4%-ni təşkil edir.

c) Gəncə Apellyasiya Məhkəməsində cəmi ləğv edilmiş 24 işə münasibətdə 4,2%, cəmi baxılmış 37 işə münasibətdə isə 2%-ni təşkil edir.

ç) Şəki Apellyasiya Məhkəməsində cəmi ləğv edilmiş 5 işə münasibətdə 40%, cəmi baxılmış 25 işə münasibətdə isə 8%-ni təşkil edir.


Təkrar ləğv edilmiş məhkəmə aktlarının iddia tələbinə görə bölgüsü
ALQI-SATQI MÜQ.ÜZRƏ
QARANTIYA MÜQ. ÜZRƏ
PODRAT MÜQ. ÜZRƏ
ƏMTƏƏ NIŞANINDAN QANUNSUZ ISTIFADƏ
ZƏRƏRIN ÖDƏNILMƏSI
BORCUN ÖDƏNILMƏSI
SIĞORTA MÜQ. ÜZRƏ
KREDIT MÜQ.ÜZRƏ
ARTIQ ÖDƏNILMIŞ PULUN QAY
LIZINQ MÜQ. ÜZRƏ
GIROV MÜQAVILƏSI ÜZRƏ
İCARƏ MÜQ. ÜZRƏ
GÖNDƏRMƏ MÜQ. ÜZRƏ
BORCUN SILINMƏSI
1
1
1
1
2
3
1
3
1
2
1
2
2
2
0
0.5
1
1.5
2
2.5
3
SAY

## 1.6. XARİCİ MƏHKƏMƏLƏRİN VƏ ARBİTRAJLARIN QƏTNAMƏLƏRİNİN İCRASI VƏ TANINMASINA DAİR

2021-ci ildə Kommersiya Kollegiyasında Azərbaycan Respublikasında xarici dövlətlərin məhkəmələrinin və arbitraj məhkəmələrinin qətnaməsinin tanınması və icrası barədə cəmi 42 ərizə icraatda olmuş, onlardan 7 (16,7%) ərizə 2020-ci ildən qalıq kimi keçmiş, 35 (83,3%) ərizə isə 2021-ci ildə kollegiyaya daxil olmuşdur.

2020-ci ilin müvafiq dövründə isə Azərbaycan Respublikasında xarici dövlətlərin məhkəmələrinin və arbitraj məhkəmələrinin qətnaməsinin tanınması və icrası barədə cəmi 18 ərizə icraatda olmuş, onlardan 3 (16,7%) ərizə 2019-cu ildən qalıq kimi keçmiş, 15 (83,3%) ərizə isə 2020-ci ildə kollegiyaya daxil olmuşdur. 11 (61,1%) ərizəyə baxılmış, 7 (38,9%) ərizə isə baxılması üçün 2021-ci ilin növbəti hesabat dövrünə qalıq keçmişdir.




Xarici məhkəmələrin və arbitrajların qətnamələrinin icrası və tanınmasına dair icraatda olmuş 36 (85,7%) ərizəyə baxılmış, 3 (7,2%) baxılmadan geri qaytarılıb 3 (7,2%) ərizə isə baxılması üçün 2022-ci ilin növbəti hesabat dövrünə qalıq keçmişdir.



2021-ci ildə baxılmış 36 işdən 34 iş üzrə xarici məhkəmələrin və arbitrajların qətnamələrinin icrası və tanınması barədə müraciətlər təmin edilmiş, 2 iş üzrə isə təmin edilməmişdir.




2020-ci ildə isə baxılmış 11 işdən 7 iş üzrə xarici məhkəmələrin və arbitrajların qətnamələrinin icrası və tanınması barədə müraciətlər təmin edilmiş, 4 iş üzrə isə təmin edilməmişdir.




Beləliklə, 2020-2021-ci illəri müqayisə etdikdə görünür ki, 2021-ci ilin cari hesabat dövründə xarici dövlətlərin məhkəmələrinin və arbitraj məhkəmələrinin qətnaməsinin tanınması və icrası barədə icraatda olmuş 24 ərizənin (1,3 dəfə) artması müşahidə edilir.

## ALİ MƏHKƏMƏNİN KOMMERSİYA KOLLEGİYASINDA 2010-2021-Cİ İLLƏR ƏRZİNDƏ XARİCİ DÖVLƏTLƏRİN MƏHKƏMƏLƏRİ VƏ ARBİTRAJLARININ QƏTNAMƏLƏRİNƏ BAXILMASI BARƏDƏ







XARİCİ DÖVLƏTLƏRİN MƏHKƏMƏ VƏ ARBİTRAJLARININ QƏTNAMƏLƏRİNİN İCRASI VƏ TANINMASI İLƏ NƏTİCƏLƏNMƏYƏN İŞLƏR
2021, 2
2020, 4
2019, 4
2018, 8
2017, 4
2016, 11
2015, 0
2014, 8
2013, 1
2012, 0
2011, 2
2010, 1
0%
20%
40%
60%
80%
100%
SAY


BAXILMADAN GERİ QAYTARILMIŞ MÜRACİƏTLƏR
2010: 1
2011: 1
2012: 0
2013: 2
2014: 1
2015: 0
2016: 0
2017: 0
2018: 1
2019: 0
2020: 0
2021: 3
SAY


NÖVBƏTİ İLƏ QALIQ KEÇƏN İŞLƏR
2021: 3
2020: 7
2019: 3
2018: 3
2017: 9
2016: 4
2015: 6
2014: 1
2013: 2
2012: 2
2011: 1
2010: 2
SAY

## 1.7. 2021-Cİ İLDƏ TƏQDİM EDİLMİŞ MÜRACİƏTLƏR VƏ VƏTƏNDAŞLARIN QƏBULU BARƏDƏ

2021-ci ildə kollegiyanın icraatında olan işləri üzrə 260 prosessual müraciət (kassasiya şikayətinə əlavə, kassasiya şikayətinə etiraz və s.) həmin işlərə əlavə edilməsi üçün kollegiyanın katibliyinə təqdim edilmişdir.

2020-ci ildə kommersiya kollegiyasının icraatında olan işlər üzrə 97 prosessual müraciət (kassasiya şikayəti, kassasiya şikayətinə əlavə, etiraz və s.) həmin işlərə əlavə edilməsi üçün kollegiyanın katibliyinə təqdim edilmişdir.

Bununla da, 2020-ci ilin müvafiq dövrü ilə müqayisə olunduqda, 163 (168,0%) prosessual müraciət artmışdır.




2021-ci ildə kollegiyanın qərarlarından Plenum icraatı üzrə 19 müraciət daxil olmuşdur, o cümlədən 15 əlavə kassasiya şikayəti, 2 məhkəmə aktlarına yeni açılmış hallar üzrə yenidən baxılması haqqında ərizə, 2 işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciəti.

2020-ci il ərzində isə 17 əlavə kassasiya şikayəti və 1 məhkəmə aktına yeni açılmış hallar üzrə yenidən baxılması barədə ərizə daxil olmuşdur. Həmin müraciətlərdən 2021-ci ilə qalıq keçməmişdir. İşdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin 2 müraciəti olmuşdur. Həmin müraciətlərə hakimlər İlqar Dadaşov və Bəhman Qəribov tərəfindən baxılmışdır. Hakim İlqar Dadaşov tərəfindən baxılmış müraciət əsasında təqdimat verilmiş, hakim Bəhman Qəribov tərəfindən baxılmış təqdimat verilməsinə dair müraciət isə əsassız hesab edilmişdir.

Beləliklə, Azərbaycan Respublikasının Plenumunda baxılması üçün cəmi 18 müraciət daxil olmuşdur. Məhkəmə aktına yeni açılmış hallar üzrə yenidən baxılması barədə ərizə Azərbaycan Respublikasının Mülki Prosessual Məcəllənin 432.2-ci, əlavə kassasiya şikayətləri isə həmin Məcəllənin 424-cü maddəsinin tələblərinə cavab vermədiklərinə görə Azərbaycan Respublikasının Ali Məhkəməsinin Plenumunun baxışına çıxarılmasından imtina edilmişdir.




Bununla da, 2020-ci ilin müvafiq dövrü ilə müqayisə olunduqda, Plenum icraatı üzrə 1 müraciət artmışdır.

Azərbaycan Respublikasında koronavirus (COVİD-19) infeksiyasının yayılması təhlükəsinin qarşısının alınması məqsədilə görülən tədbirlər çərçivəsində vətəndaşların fərdi və kollektiv qaydada qəbulu dayandırıldığından qəbul digər vasitələrlə (telefon, mobil və internet rabitəsi ilə) təmin edilmişdir. Hesabat dövründə Kommersiya Kollegiyası sədrinin qəbuluna müraciət edən olmamışdır.

## 1.8. 2020-2021-Cİ İLƏRDƏ AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİNƏ AZƏRBAYCAN RESPUBLİKASI ALİ MƏHKƏMƏSİNİN KOMMERSİYA KOLLEGİYASININ QƏRARLARINDAN DAXİL OLMUŞ ŞİKAYƏTLƏRƏ DAİR HESABAT

2021-ci ildə Kontitusiya Məhkəməsinin Plenumu tərəfindən Ali Məhkəmənin Kommersiya Kollegiyasının qərarlarından verilən şikayətlər üzrə 1 Plenum qərarı qəbul edilmişdir. 2020-ci ildə isə Kontitusiya Məhkəməsinin Plenumu tərəfindən Ali Məhkəmənin İnzibati-İqtisadi Kollegiyasının qərarlarından verilən şikayətlər üzrə 2 Plenum qərarı qəbul edilmişdir.

## 1.9. 2021-Cİ İLDƏ AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİNDƏ BAXILMIŞ KOMMERSİYA MÜBAHİSƏLƏRİNƏ DAİR HESABAT

2021-ci ildə Avropa İnsan Hüquqları Məhkəməsində baxılaraq yekun qərar qəbul edilmiş kommersiya mübahisəsi olmamışdır.

## 1.10. AZƏRBAYCAN RESPUBLİKASI ALİ MƏHKƏMƏSİNİN KOMMERSİYA KOLLEGİYASINDA 2015-2021-Cİ İLLƏR ƏRZİNDƏ İCRAATDA OLAN İŞLƏR BARƏDƏ

## HESABAT







Cəmİ baxılmış işlər üzrə
600
500
400
300
200
100
0
2014
2015
2016
2017
2018
2019
2020
2021
2022
2015, 345
2016, 490
2017, 504
2018, 465
2019, 500
2020, 263
2021, 494
Ряд 1
Столбец2
Столбец1


Kassasiya qaydasında dəyişdirilmədən saxlanılmış məhkəmə aktları üzrə
450
400
350
300
250
200
150
100
50
0
2014
2015
2016
2017
2018
2019
2020
2021
2022
228
360
347
315
366
175
347


Kassasiya qaydasında ləğv edilmiş məhkəmə aktları üzrə
180
160
140
120
100
80
60
40
20
0
2014
2015
2016
2017
2018
2019
2020
2021
2022
110
123
150
140
128
85
136


Kassasiya qaydasında dəyişdirilmiş məhkəmə aktları üzrə
7
6
5
4
3
2
1
0
2014
2015
2016
2017
2018
2019
2020
2021
2022
4
4
6
4
4
4
6

## 1.11. APELLYASİYA İNSTANSİYASI MƏHKƏMƏLƏRİNDƏN DAXİL OLMUŞ İŞLƏRƏ BAXILMASININ MÜQAYİSƏLİ TƏHLİLİ




❖ 2021-ci ildə 81 iş birinci instansiya məhkəmələrindən daxil olmuşdur.

## 1.12. 2021-Cİ İLDƏ MƏHKƏMƏ AKTLARINDAN VERİLMİŞ KASSASİYA ŞİKAYƏTLƏRİNƏ BAXILMASI VƏZİYYƏTİNİN APELLYASİYA İNSTANSİYASI MƏHKƏMƏLƏRİ ÜZRƏ TƏHLİLİ

### 1.12.1. BAKI APELLYASİYA MƏHKƏMƏSİ

2021-ci ildə ümumən icraatda olmuş 762 işin 454 (59,58%) Bakı Apellyasiya Məhkəməsindən daxil olmuşdur. Onlardan 315 (69,4%) işə 2021-ci ildə baxılmış, 90 (19,8%) iş növbəti dövrə qalıq keçmiş, 49 (10,8%) kassasiya şikayəti isə geri qaytarılmışdır.




2020-ci ildə isə ümumən icraatda olmuş 430 işin 255-i (59,3%) Bakı Apellyasiya Məhkəməsindən daxil olmuşdur. Onlardan 184 (72,16%) işə 2020-ci ildə baxılmış, 54 (21,18%) iş növbəti dövrə qalıq keçmiş, 17 (6,67%) kassasiya şikayəti isə geri qaytarılmışdır.




Beləliklə, Bakı Apellyasiya Məhkəməsindən daxil olmuş işlərin sayında 199 iş sayı qədər artma olmuşdur. Baxılmış işlərin sayında 131 iş, qalıq keçmiş işlərin sayında 36, kassasiya şikayəti isə geri qaytarılmış 32 iş sayı qədər artma olmuşdur.

2021-ci ildə baxılmış 315 işdən 226 (71,75%) iş üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 80 (25,4%) iş üzrə məhkəmə aktları ləğv edilmiş, 5 (1,59%) iş üzrə məhkəmə aktı dəyişdirilmiş, 4 (1,27%) kassasiya icraatına xitam verilmişdir.




2020-ci ildə isə baxılmış 184 işdən 130 (70,65%) iş üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 54 (28,8%) iş üzrə məhkəmə aktları ləğv edilmiş, 1 (0,54%) iş üzrə məhkəmə aktı dəyişdirilmişdir.





Bakı Apellyasiya Məhkəməsi
350
300
250
200
150
100
50
0
184
130
76.1%
53
22%
1
1.3%
0
0.6%
315
226
74.3%
80
24%
5
1%
4
0.7%
2020-ci il
2021-ci il
Baxılmış işlər
Dəyişdirilmədən saxlanılmış işlər
Ləğv edilmiş işlər
Dəyişdirilən
Kassasiya icraatına xitam verilən

## Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasınının kassasiya qaydasında ləğv edilmiş məhkəmə aktlarının nəticələri üzrə hesabatı

2021-ci ildə Ali Məhkəmənin Kommersiya Kollegiyasında Bakı Apellyasiya Məhkəməsindən daxil olmuş 454 işdən 315 (69,38%) işə baxılmışdır. Baxılmış işlərdən 80-də (25,4%) məhkəmə aktı ləğv edilmişdir. Onlardan 62 (77,5%) iş üzrə məhkəmə aktı ləğv edilərək təkrar baxışa göndərilmiş, 13 (16,25%) iş üzrə isə yekun məhkəmə aktı qəbul edilmiş, 5 (6,25%) işdə icraata xitam verilmişdir.






2020-ci ildə isə Ali Məhkəmənin Kommersiya Kollegiyasında Bakı Apellyasiya Məhkəməsindən daxil olmuş 255 işdən 184 işə baxılmışdır. Baxılmış işlərdən 54-də məhkəmə aktı ləğv edilmişdir. Onlardan 45 iş üzrə məhkəmə aktı ləğv edilərək təkrar baxışa göndərilmiş, 9 iş üzrə isə yekun məhkəmə aktı qəbul edilmişdir: 7 işdə icraata xitam verilmiş, 1 işdə qərardad ləğv edilərək, mahiyyəti üzrə baxılması üçün göndərilmiş, 1 işdə isə qətnamə qismən ləğv edilərək həmin hissədə iddia təmin edilmişdir.






**2019-2021-ci illər ərzində Bakı Apellyasiya Məhkəməsindən daxil olmuş işlər barəsində hesabat**

**(müqayisəli şəkildə)**












Beləliklə, 2021-ci ildə 2020-ci illə müqayisədə baxılmış işlərdə 131 iş artım olmuşdur. Baxılmış işlər üzrə dəyişdirilmədən saxlanılmış işlərdə 97 iş, ləğv edilmiş işlərdə 26 iş, dəyişdirilmiş işlər üzrə isə 4 iş sayı qədər artım olmuşdur.

## 1.12.2. GƏNCƏ APELLYASİYA MƏHKƏMƏSİ

2021-ci ildə daxil olmuş 762 işdən 60 (7,87%) iş Gəncə Apellyasiya Məhkəməsindən daxil olmuşdur. Onlardan 50 (83,33%) işə 2021-ci ildə baxılmış, 3 (5%) iş növbəti dövrə qalıq keçmiş, 7 (11,67%) iş üzrə kassasiya şikayəti isə geri qaytarılmışdır.




2020-ci ildə isə daxil olmuş 430 işdən 32-si (7,5%) Gəncə Apellyasiya Məhkəməsindən daxil olmuşdur. Onlardan 26 (81,25%) işə 2020-ci ildə baxılmış, 5 (15,63%) iş növbəti dövrə qalıq keçmiş, 1 (3,13%) iş üzrə kassasiya şikayəti isə geri qaytarılmışdır.



2021-ci ildə baxılmış işlər üzrə 25 (50%) məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 24 (48%) məhkəmə aktı isə ləğv edilmiş, 1 (2%) məhkəmə aktı isə dəyişdirilmişdir.




2020-ci ildə isə baxılmış işlər üzrə 16 (67%) məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 10 (33%) məhkəmə aktı isə ləğv edilmişdir.





Gəncə Apellyasiya Məhkəməsi
60
50
40
30
20
10
0
26
16
76.1%
10
22%
0
1.3%
0
0.6%
50
25
74.3%
24
24%
1
1%
0
0.7%
2020-ci il
2021-ci il
Baxılmış işlər
Dəyişdirilmədən saxlanılmış işlər
Ləğv edilmiş işlər
Dəyişdirilən
Kassasiya icraatına xitam verilən

## Gəncə Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyası tərəfindən ləğv edilmiş məhkəmə aktlarının nəticələr üzrə hesabatı

2021-ci ildə Ali Məhkəmənin Kommersiya Kollegiyasında Gəncə Apellyasiya Məhkəməsindən daxil olmuş 60 işdən 50 (83,33%) işə baxılmışdır. Baxılmış işlərdən 24-də (48%) məhkəmə aktı ləğv edilmişdir. Onlardan 20 (83,33%) iş üzrə məhkəmə aktı ləğv edilərək təkrar baxışa göndərilmiş, 4 (16,67%) iş üzrə isə yekun məhkəmə aktı qəbul edilmişdir.






2020-ci ildə isə Ali Məhkəmənin Kommersiya Kollegiyasında Gəncə Apellyasiya Məhkəməsindən daxil olmuş 32 işdən 26 işə baxılmışdır. Baxılmış işlərdən 10-da məhkəmə aktı ləğv edilmişdir. Onlardan 7 iş üzrə məhkəmə aktı ləğv edilərək təkrar baxışa göndərilmiş, 3 iş üzrə isə yekun məhkəmə aktı qəbul edilmişdir: 1 işdə icraata xitam verilmiş, 1 işdə qətnamə qismən ləğv edilərək, həmin hissədə iddia təmin edilmiş, 1 işdə isə qətnamə qismən ləğv edilərək, həmin hissədə icraata xitam verilmiş, qalan hissədə isə dəyişdirilmədən saxlanılmışdır.






## 2019-2021-Cİ İLLƏR ƏRZİNDƏ GƏNCƏ APELLYASİYA MƏHKƏMƏSİNDƏN DAXİL OLMUŞ İŞLƏR BARƏDƏ HESABAT










Beləliklə, 2021-ci ildə 2020-ci illə müqayisədə baxılmış işlərin sayında 26 iş artmışdır. Baxılmış işlər üzrə dəyişdirilmədən saxlanılmış işlərin sayında 9 iş, ləğv edilmiş işlərin sayında isə 14 iş, dəyişdirilmiş işlərin sayında isə 4 iş sayı qədər artım olmuşdur.

### 1.12.3. SUMQAYIT APELLYASİYA MƏHKƏMƏSİ

2021-ci ildə daxil olmuş 762 işdən 47 (6,17%) iş Sumqayıt Apellyasiya Məhkəməsindən daxil olmuşdur. Onlardan 37 (78,72%) işə 2021-ci ildə baxılmış, 5 (10,64%) iş növbəti ilə qalıq keçmiş, 5 (10,64%) iş üzrə isə kassasiya şikayəti geri qaytarılmışdır.




2020-ci ildə isə daxil olmuş 430 işdən 37 (8,6%) iş Sumqayıt Apellyasiya Məhkəməsindən daxil olmuşdur. Onlardan 27 (72,97%) işə 2020-ci ildə baxılmış, 7 (18,92%) iş növbəti ilə qalıq keçmiş, 3 (8,11%) iş üzrə isə kassasiya şikayəti geri qaytarılmışdır.



2021-ci ildə baxılmış işlər üzrə 25 (67,57%) məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 12 (32,43%) məhkəmə aktı isə ləğv edilmişdir.




2020-ci ildə isə baxılmış işlər üzrə 19 (70,37%) məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 8 (29,63%) məhkəmə aktı isə ləğv edilmişdir.




Sumqayıt Apellyasiya Məhkəməsi
40
35
30
25
20
15
10
5
0
27
19
76.1%
8
22%
0
1.3%
0
0.6%
37
25
74.3%
12
24%
0
1%
0
0.7%
2020-ci il
2021-ci il
Baxılmış işlər
Dəyişdirilmədən saxlanılmış işlər
Ləğv edilmiş işlər
Dəyişdirilən
Kassasiya icraatına xitam verilən

## Sumqayıt Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasınının Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyası tərəfindən ləğv edilmiş məhkəmə aktlarının nəticələr üzrə hesabatı

2021-ci ildə isə Ali Məhkəmənin Kommersiya Kollegiyasında Sumqayıt Apellyasiya Məhkəməsindən daxil olmuş 47 işdən 37 (78,72%) işə baxılmışdır. Baxılmış işlərdən 12-də (32,43%) məhkəmə aktı ləğv edilmişdir. Onlardan 11 (91,67%) iş üzrə məhkəmə aktı ləğv edilərək təkrar baxışa göndərilmiş, 1 (8,33%) iş üzrə isə iş üzrə icraata xitam verilmişdir.






2020-ci ildə isə Ali Məhkəmənin Kommersiya Kollegiyasında Sumqayıt Apellyasiya Məhkəməsindən daxil olmuş 37 işdən 27 işə baxılmışdır. Baxılmış işlərdən 8-də məhkəmə aktı ləğv edilmişdir. Onlardan 7 iş üzrə məhkəmə aktı ləğv edilərək təkrar baxışa göndərilmiş, 1 iş üzrə məhkəmə aktı ləğv edilərək, məhkəmə aidiyyəti qaydalarına müvafiq olaraq iş ümumi yusidiksiyalı məhkəməyə baxılması üçün göndərilmişdir.






## 2019-2021-Cİ İLLƏR ƏRZİNDƏ SUMQAYIT APELLYASİYA MƏHKƏMƏSİNDƏN DAXİL OLMUŞ İŞLƏR BARƏDƏ HESABAT










Beləliklə, 2021-ci ildə 2020-ci illə müqayisədə baxılmış işlərin sayında 21 iş artmışdır. Baxılmış işlər üzrə dəyişdirilmədən saxlanılmış işlərin sayında 9 iş, ləğv edilmiş işlərin sayında isə 2 iş sayı qədər artım olmuşdur.

## 1.12.4. ŞİRVAN APELLYASİYA MƏHKƏMƏSİ

2021-ci ildə daxil olmuş 762 işdən 82 (10,76%) iş Şirvan Apellyasiya Məhkəməsindən daxil olmuşdur. Onlardan 65 (79,27%) işə 2021-ci ildə baxılmış, 8 (9,76%) iş növbəti dövrə keçmiş, 9 (10,97%) iş üzrə kassasiya şikayəti geri qaytarılmışdır.




2020-ci ildə isə daxil olmuş 430 işdən 37 (8,6%) iş Şirvan Apellyasiya Məhkəməsindən daxil olmuşdur. Onlardan 19 (51,35%) işə 2020-ci ildə baxılmış, 12 (32,43%) iş növbəti dövrə keçmiş, 5 (13,51%) iş üzrə kassasiya şikayəti geri qaytarılmış, 1 (2,7%) iş isə məhkəmə aidiyyəti ilə bağlı olmuşdur.



2021-ci ildə baxılmış 65 işdən 50 (76,92%) iş üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 15 (23,08%) iş üzrə məhkəmə aktı ləğv edilmişdir.




2020-ci ildə isə baxılmış 19 işdən 9 (47,37%) iş üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 8 (42,11%) iş üzrə məhkəmə aktı ləğv edilmiş, 2 (10,53%) iş üzrə məhkəmə aktı isə dəyişdirilmişdir.




Şirvan Apellyasiya Məhkəməsi
70
60
50
40
30
20
10
0
19
9
76.1%
8
22%
2
1.3%
65
50
74.3%
15
24%
0
1%
2020-ci il
2021-ci il
Baxılmış işlər
Dəyişdirilmədən saxlanılmış işlər
Ləğv edilmiş işlər
Dəyişdirilən

## Şirvan Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasınının Ali Məhkəmənin Kommersiya Kollegiyası tərəfindən ləğv edilmiş məhkəmə aktlarının nəticələr üzrə hesabat

2021-ci ildə Ali Məhkəmənin Kommersiya Kollegiyasında Şirvan Apellyasiya Məhkəməsindən daxil olmuş 82 işdən 65 (79,27%) işə baxılmışdır. Baxılmış işlərdən 15-də (23,08%) məhkəmə aktı ləğv edilmişdir. Onlardan 10 (66,67%) iş üzrə məhkəmə aktı ləğv edilərək təkrar baxışa göndərilmiş, 4 (26,67%) iş üzrə yeni qərar qəbul edilmiş, 1 (1,67%) iş üzrə icraata xitam verilmişdir.






2020-ci ildə isə Ali Məhkəmənin Kommersiya Kollegiyasında Şirvan Apellyasiya Məhkəməsindən daxil olmuş 37 işdən 19 işə baxılmışdır. Baxılmış işlərdən 8-də məhkəmə aktı ləğv edilmişdir. Onlardan 8 iş üzrə məhkəmə aktı ləğv edilərək təkrar baxışa göndərilmişdir.






**2019-2021-ci illər ərzində Şirvan Apellyasiya Məhkəməsindən daxil olmuş işlər barədə hesabat**












Beləliklə, 2021-ci ildə 2020-cu illə müqayisədə baxılmış işlərin sayında 46 iş azalma olmuşdur. Baxılmış işlər üzrə dəyişdirilmədən saxlanılmış işlərin sayında 41 iş, ləğv edilmiş işlərin sayında 7 iş artım, dəyişdirilmiş işlərin sayında isə 2 iş azalma olmuşdur.

## 1.12.5.ŞƏKİ APELLYASİYA MƏHKƏMƏSİ

2021-ci ildə daxil olmuş 762 işdən 35 (4,59%) iş Şəki Apellyasiya Məhkəməsindən daxil olmuşdur. Onlardan 25 (72,43%) işə 2021-ci ildə baxılmış, 4 (11,43%) iş növbəti dövrə qalıq keçmiş, 5 (14,29%) iş üzrə kassasiya şikayəti geri qaytarılmış, 1 (2,86) iş məhkəmə aidiyyəti ilə bağlı olmuşdur.




2020-ci ildə isə daxil olmuş 430 işdən 12 (2,8%) iş Şəki Apellyasiya Məhkəməsindən daxil olmuşdur. Onlardan 6 (50%) işə 2020-ci ildə baxılmış, 4 (33,33%) iş növbəti dövrə qalıq keçmiş, 1 (8,33%) iş üzrə kassasiya şikayəti geri qaytarılmış, 1 (8,33%) iş isə məhkəmə aidiyyəti ilə bağlı olmuşdur.



2021-ci ildə baxılmış 25 işdən 19 (76%) iş üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 5 (20%) iş üzrə məhkəmə aktı ləğv edilmiş, 1 (4%) məhkəmə aidiyyəti ilə bağlı olmuşdur.




2020-ci ildə isə baxılmış 6 işdən 1 (16,67%) iş üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 4 (66,67%) iş üzrə məhkəmə aktı ləğv edilmiş, 1 (16,67%) iş üzrə məhkəmə aktı dəyişdirilmişdir.




Şəki Apellyasiya Məhkəməsi
30
25
20
15
10
5
0
6
1
76.1%
4
22%
1
1.3%
0
0.6%
25
19
74.3%
5
24%
0
1%
1
0.7%
2020-ci il
2021-ci il
Baxılmış işlər
Dəyişdirilmədən saxlanılmış işlər
Ləğv edilmiş işlər
Dəyişdirilən
Kassasiya icraatına xitam verilən

## Şəki Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasınının Ali Məhkəmənin Kommersiya Kollegiyası tərəfindən ləğv edilmiş məhkəmə aktlarının nəticələr üzrə bölgüsü

2021-ci ildə Ali Məhkəmənin Kommersiya Kollegiyasında Şəki Apellyasiya Məhkəməsindən daxil olmuş 35 işdən 25 (71,43%) işə baxılmışdır. Baxılmış işlərdən 5-də (20%) məhkəmə aktı ləğv edilərək təkrar baxışa göndərilmişdir.






2020-ci ildə isə Ali Məhkəmənin Kommersiya Kollegiyasında Şəki Apellyasiya Məhkəməsindən daxil olmuş 12 işdən 6 işə baxılmışdır. Baxılmış işlərdən 4-də məhkəmə aktı ləğv edilmişdir. Onlardan 3 iş üzrə məhkəmə aktı ləğv edilərək təkrar baxışa göndərilmiş, 1 iş üzrə isə yekun məhkəmə aktı qəbul edilərək, icraata xitam verilmişdir.






## 2019-2021-ci illər ərzində Şəki Apellyasiya Məhkəməsindən daxil olmuş işlər barədə hesabat












Beləliklə, 2021-ci ildə 2020-ci illə müqayisədə baxılmış işlərin sayında 19 iş artmışdır. Baxılmış işlər üzrə dəyişdirilmədən saxlanılmış işlərin sayında 18 iş, ləğv edilmiş işlərin sayında 1 iş artım, dəyişdirilmiş işlərin sayında isə 1 iş azalma olmuşdur.

## 1.12.6. NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏHKƏMƏSİ

2021-ci ildə daxil olmuş 762 işdən 3 (0,39%) iş Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsindən daxil olmuşdur. Onlardan 2 (66,67%) işə 2021-ci ildə baxılmış, 1 (33,33%) iş növbəti dövrə qalıq keçmşdir.




Baxılmış 2 iş üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmışdır.




2020-ci ildə isə daxil olmuş 430 işdən 1 (0,2%) iş Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsindən daxil olmuşdur. Həmin iş üzrə məhkəmə aktı ləğv edilmişdir.




Naxçıvan MR Ali Məhkəməsi
2.5
2
1.5
1
0.5
0
1
0
76.1%
1
22%
0
1.3%
0
0.6%
2
2
74.3%
0
24%
0
1%
0
0.7%
2020-ci il
2021-ci il
Baxılmış işlər
Dəyişdirilmədən saxlanılmış işlər
Ləğv edilmiş işlər
Dəyişdirilən
Kassasiya icraatına xitam verilən

## Naxçıvan MR Ali Məhkəməsinin Kommersiya Kollegiyasınının Ali Məhkəmənin Kommersiya Kollegiyası tərəfindən ləğv edilmiş məhkəmə aktlarının nəticələr üzrə bölgüsü

2021-ci ildə Ali Məhkəmənin Kommersiya Kollegiyasında Naxçıvan MR Məhkəməsindən daxil olmuş 3 işdən 2 (66,67%) işə baxılmışdır. Baxılmış işlərdən 2-də (100%) məhkəmə aktı dəyişdirilmədən saxlanılmışdır.




## 2019-2021-ci illər ərzində Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin işlərinə baxılması barədə hesabat (müqayisəli şəkildə)







Beləliklə, 2021-ci ildə 2020-ci illə müqayisədə baxılmış işlərdə 2 iş artmışdır. Həmin iş üzrə məhkəmə aktı ləğv edildiyi üçün ləğv edilmiş məhkəmə aktlarında 100% azalma olmuşdur.

# *II. Apellyasiya məhkəmələrinin icraatında olan kommersiya mübahisələrinə dair işlərin hesabatı*[1]

## 2.1. Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2021-ci ildə icraatında olan işlərə dair

**HESABATI**

1. 2021-ci ildə Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının icraatında cəmi 1568 iş (kommersiya mübahisələrinə dair işlər üzrə - 1541 (98,28%) iş, məhkəmə qətnamələrinin (qərarlarının) icrası qaydasında icraat üzrə - 16 (1,02%) və müvəqqəti təminat (müvəqqəti xarakterli müdafiə) tədbirləri üzrə - 11 (0,7%) material) olmuşdur. Onlardan 202 (12,88%) iş 2020-cu ildən qalıq keçmiş, 1366 iş (87,12%) isə 2021-ci ildə daxil olmuşdur.

2. Təhlil zamanı müəyyən edilmişdir ki, 2020-cu il ilə müqayisədə 2021-ci ildə məhkəmənin icraatına daxil olan bu qəbildən olan işlərin sayı 81,27 % (703 iş) artmışdır. Belə ki, 2020-cu ildə kollegiyanın icraatında 865 iş (kommersiya icraatı üzrə - 856 (98,96%) iş, məhkəmə qətnamələrinin (qərarlarının) icrası qaydasında icraat üzrə - 9 (1,04%) material) olmuşdur.

3. 2021-ci ildə Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının icraatında olan 1568 işdən 202 (12,88%) iş 2020-cu ildən qalıq keçmiş, 1366 iş (87,12%) isə 2021-ci ildə daxil olmuşdur. 2020-cu ildə isə 2019-cu ildən qalıq keçən işlərin sayı 97 (11,21%), daxil olan işlərin sayı isə 768 (88,79%) olmuşdur. Beləliklə, 2021-ci ildə 2020-cu il ilə müqayisədə qalıq işlərin sayında 108,25% (105 iş), daxil olan işlərin sayında isə 77,86% (598 iş) artım baş vermişdir.




[1] Apellyasiya məhkəmələrinin icraatında olan kommersiya mübahisələrinə dair işlərin hesabatı hazırlanarkən istifadə olunmuş məlumatlar müvafiq olaraq hər bir məhkəmənin özü tərəfindən təqdim olunmuşdur.

4. Hesabat dövründə kollegiyanın icraatında olan 1568 işdən 1360-ı (86,73%) yekunlaşdırılmış, 208 (13,27%) iş isə 2022-ci ilə qalıq keçmişdir.




5. Yekunlaşmış 1360 məhkəmə işindən 1195 işə (87,87%) apellyasiya qaydasında baxılmış, 144 (10,59%) iş üzrə MPM-in 369-370-ci maddələrinə əsasən apellyasiya icraatına xitam verilmiş, 20 (1,47%) iş baxılmadan geriyə qaytarılmış, 1 (0,07%) iş üzrə isə aidiyyət məsələsinə baxılmışdır.



6. Apellyasiya qaydasında baxılmış 1195 işdən 815 (68,2%) iş üzrə apellyasiya şikayəti qətnamədən, 380 (31,8%) iş üzrə şikayət qərardaddan verilmişdir.




Həmin 1195 işdən 808 (67,62%) məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 252 (21,09%) məhkəmə aktı tam ləğv edilmiş, 96 (8,03%) məhkəmə aktı qismən ləğv edilmiş, 39 (3,26%) məhkəmə aktı dəyişdirilmişdir.



7. 815 kommersiya mübahisələrinə dair işlərdən qəbul edilmiş qətnamələrdən 540 (66,26%) qətnamə dəyişdirilmədən saxlanılmış, 110 (13,5%) qətnamə tam ləğv edilərək, yeni qətnamə qəbul edilmiş, 86 (10,55%) qətnamə qismən ləğv edilərək, yeni qətnamə qəbul edilmiş, 41 (5,03%) qətnamə tam ləğv edilib, iş üzrə icraata xitam verilmiş, 7 (0,86%) qətnamə ləğv edilərək iddia (ərizə) baxılmamış saxlanılmış, 31 (3,8%) qətnamə dəyişdirilmişdir.




8. 380 iş üzrə qəbul edilmiş qərardadlardan 268 (70,53%) qərardad dəyişdirilmədən saxlanılmış, 95 (25%) qərardad tam ləğv edilmiş, 9 (2,37%) qərardad qismən ləğv edilmiş, 8 (2,1%) qərardad dəyişdirilmişdir.



9. 2020-cu il ilə müqayisədə 2021-ci ildə birinci instansiya məhkəməsinin ləğv olunan məhkəmə aktlarının sayı artmışdır. Belə ki, 2020-cu ildə apellyasiya qaydasında baxılmış 592 kommersiya işindən 406 (68,58%) məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 113 (19,09%) məhkəmə aktı tam ləğv edilmiş, 45 (7,6%) məhkəmə aktı qismən ləğv edilmiş, 28 (4,73%) məhkəmə aktı dəyişdirilmişdir.

10. İşlərin Ali Məhkəmədə baxılmasına dair məlumat daxil olmadığından kommersiya işlərinin kassasiya qaydasında baxılmasının nəticələrinə dair təhlil aparılmamışdır.

11. Məhkəmə aidiyyəti ilə bağlı 1 iş daxil olmuşdur. Həmin kommersiya işi üzrə Bakı Kommersiya Məhkəməsinin 12.07.2021-ci il tarixli qərardadına əsasən iddia ərizəsinin ərazi aidiyyətinin müəyyən olunması üçün iş Bakı Apellyasiya Məhkəməsinə göndərilmişdir. Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 27 iyul 2021-ci il tarixli, 2-2(103)-916/2021 nömrəli qərardadı ilə kommersiya işin ərazi aidiyyəti üzrə baxılması üçün Şirvan Kommersiya Məhkəməsinə göndərilməsi qərara alınmışdır.

12. Baxılmış işlərin subyekt tərkibi üzrə bölgüsü aşağıdakı kimi olmuşdur:

Xarici kommersiya hüquqi şəxslər (nümayəndəlik və filiallar) - 14 iş;

Qeyri-kommersiya hüquqi şəxslər (sahibkarlıq fəaliyyətinin həyata keçirilməsindən irəli gələn tələblər) – 5 iş;

Dövlət orqanı - 164 iş;

Bələdiyyə - 2 iş;

Publik hüquqi şəxs - 21 iş;

Təbii inhisar subyektləri – 257 iş.

## 2021-Cİ İLDƏ BAXILMIŞ İŞLƏRİN KATEQORİYALAR ÜZRƏ BÖLGÜSÜ

| İDDİALARIN KATEQORİYALARI | İŞİN SAYI |
|---|---|
| Mülkiyyət hüququ ilə əlaqədar mübahisələr | 11 |
| Əqli Mülkiyyət hüququ ilə əlaqədar mübahisələr | 4 |
| Torpaq mübahisələri | 5 |
| Vergi mübahisələri | 2 |
| Müqavilənin bağlanması, dəyişdirilməsi və ləğv edilməsi, etibarsız hesab edilməsi, məcburi bağlanması | 48 |
| Müqavilələrdən əmələ gələn öhdəliklər üzrə mübahisələr (21,22,24-28,30-33 sətr.cəmi) | 731 |
| o cümlədən: Alqı-satqı müqaviləsi üzrə | 246 |
| İcarə müqaviləsi üzrə | 57 |
| Borc müqaviləsi üzrə | 31 |
| Kredit | 94 |
| Zaminlik | 1 |
| Girov | 1 |
| Daşıma müqavilələri üzrə | 18 |
| onlardan: yük daşınması müqaviləsi üzrə | 3 |
| Sığorta müqaviləsi üzrə | 20 |
| Bank əmanəti və bank hesabatı müqavilələri üzrə | 4 |
| Mülki dövriyyənin iştirakçıları arasında hesablaşmalar; Qiymətli kağızlar üzrə öhdəliklər haqqında | 3 |
| Sair öhdəlik mübahisələri üzrə | 253 |
| Mülki hüquq pozuntularından (deliktlərdən) əmələ gələn öhdəliklər üzrə mübahisələr | 35 |
| Xüsusi icraat işləri üzrə (37-52 sətr. cəmi) | 32 |
| o cümlədən: Hüquqi əhəmiyyəti olan faktların müəyyən edilməsi haqqında | |
| Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında | 32 |
| Fiziki şəxslərdən vergi və dövlət məcburi sığortası qalığının tələbi üzrə | 2 |
| Sair mülki işlər üzrə | 303 |
| Ümumi yekun sayı (1, 10, 14-20, 34-36, 53, 58, 60) | 1.173 |

## 2.2. Gəncə Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2021-ci ildə icraatında olan işlərə dair

## HESABATI

1. 2021-ci ildə Kommersiya kollegiyasının icraatında cəmi 298 iş olmuşdur. Onlardan 53 iş (17,8%) 2020-ci ildən qalıq keçmiş, 245 iş (82,2%) isə 2021-ci ilin 05 yanvar - 30 dekabr tarixlərində daxil olmuşdur.

2. 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə (169 iş daxil olmuş - 34 iş (20,1%) 2019-cu ildən qalıq keçmiş, 135 iş (79,9%) isə 2020-ci ildə daxil olmuşdur) icraatda olan iş sayı 129 iş (76,3%) qədər artmışdır.




3. Ötən ilin müvafiq dövrü ilə müqayisədə ayrıca götürülməklə qalıq keçən və daxil olan işlərin sayında dinamika aşağıdakı kimi olmuşdur: 2019-cu ildən 2020-ci ilə 34 iş qalıq olaraq keçmiş, 135 iş yeni daxil olmuşdur. 2020-ci ildən isə 2021-ci ilə 53 iş qalıq keçmiş, 245 iş yeni daxil olmuşdur. Göründüyü kimi 2021-ci ildə qalıq keçən və daxil olan işlərin sayında artma olmuşdur.

4. 2021-ci ildə icraatda olmuş ümumi işlərin 218-i (73,2%) yekunlaşmış, 15 iş (5%) üzrə apellyasiya icraatına xitam verilmiş, 65 iş (21,8%) isə qalıq olaraq 2022-ci ilə keçmişdir.

5. Baxılmış işlər üzrə - 155 iş (66,5%) üzrə qətnamə çıxarılmış, 15 iş (6,5%) üzrə apellyasiya mümkün sayılmamış, 3 iş (1,3%) üzrə qətnamə tamamilə ləğv edilərək icraata xitam verilmiş, 1 iş (0,4%) üzrə qətnamə tamamilə ləğv edilərək ərizə baxılmamış saxlanılmış, 1 iş (0,4%) üzrə qətnamə tamamilə ləğv edilərək ərizə baxılmamış saxlanılmış, 58 iş (24,9%) üzrə qərardaddan verilən şikayətlərə baxılmışdır.



6. Qətnamədən verilən şikayətlər əsasında baxılan işlərdən: 97 iş (60,6%) üzrə qətnamə qüvvədə saxlanılmışdır. Qərardaddan verilən şikayətlər əsasında baxılan işlərdən: 34 iş (58,6%) üzrə qərardad qüvvədə saxlanılmışdır.

7. Qətnamədən verilən şikayətlər əsasında baxılan işlərdən: 33 iş (20,6%) üzrə qətnamə tamamilə ləğv edilmiş, 14 iş (8,8%) üzrə qətnamə qismən ləğv edilmiş, 3 iş (1,9%) üzrə qətnamə tamamilə ləğv edilərək iş üzrə icraata xitam verilmiş, 1 iş (0,6%) üzrə qətnamə tamamilə ləğv edilərək ərizə baxılmamış saxlanılmış, 1 iş (0,6%) üzrə qətnamə qismən ləğv edilərək ərizə baxılmamış saxlanılmış, 11 iş (6,9%) üzrə qətnamə dəyişdirilmişdir. Qərardaddan verilən şikayətlər əsasında baxılan işlərdən: 20 iş (34,5%) üzrə qərardad tam ləğv edilmiş, 3 iş (5,2%) üzrə qərardad qismən ləğv edilmiş, 1 iş (1,7%) üzrə qərardad dəyişdirilmişdir.




8. 2020-ci ildə qətnamədən verilən şikayətlər əsasında baxılan işlərdən: 30 iş (42,3%) üzrə qətnamə ləğv edilmiş; Qərardaddan verilən şikayətlər əsasında baxılan işlərdən: 11 iş (32,3%) üzrə qərardad tam ləğv edilmişdirsə, 2021-ci ildə qətnamədən verilən şikayətlər əsasında baxılan işlərdən: 52 iş (32,5%) üzrə qətnamə ləğv edilmiş; Qərardaddan verilən şikayətlər əsasında baxılan işlərdən: 23 iş (39,7%) üzrə qərardad ləğv edilmişdir. Beləliklə, 2021-ci ildə qətnamədən verilən şikayətlər əsasında baxılan işlərdə ləğv statistikasında 2020-ci ilə nisbətən azalma, qərardaddan verilən şikayətlər əsasında baxılan işlərdə ləğv statistikasında 2020-ci ilə nisbətən artma olmuşdur.

9. Baxılmış işlər üzrə 30 qətnamədən kassasiya şikayəti verilmişdir.

10. Məhkəmə aidiyyəti ilə bağlı işlərə baxılmamışdır.

**11. Baxılmış işlərin kateqoriyalar üzrə bölgüsü aşağıdakı kimi olmuşdur:**

- Əşya hüquq münasibətlərindən, o cümlədən torpaq münasibətlərindən, əmlaka istifadə, sahiblik, mülkiyyət hüququnun müdafiəsindən irəli gələn mübahisələr üzrə - 12 iş olmuşdur;
- Müqavilə münasibətlərindən irəli gələn mübahisələr üzrə - 161 iş olmuşdur;
- Sair münasibətlərindən irəli gələn mübahisələr üzrə - 45 iş olmuşdur;

a)
- İcarə müqaviləsi üzrə - 44 iş olmuşdur;
- Torpaq icarə müqaviləsi üzrə - 1 iş olmuşdur;
- Borc (kredit) müqaviləsi üzrə - 99 iş olmuşdur;
- Sığorta müqaviləsi üzrə - 1 iş olmuşdur;
- Mülkiyyət hüququ ilə əlaqədar mübahisələr üzrə - 5 iş olmuşdur;
- Torpaq mübahisələri üzrə - 7 iş olmuşdur;
- Sair öhdəlik mübahisələri üzrə - 13;
- Sair kommersiya işlər üzrə - 45 iş olmuşdur.

c)
- Müqavilələrin bağlanması, dəyişdirilməsi, ləğv edilməsi, etibarsız hesab edilməsi və məcburi bağlanması üzrə - 3 iş olmuşdur.

## 2.3. Sumqayıt Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2021-ci ildə icraatında olan işlərə dair

## <u>H E S A B A T I</u>

1. 2021-ci ildə Sumqayıt Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının icraatında olan 196 işdən 42 (21,4%) iş 2020-ci ildən qalıq keçmiş, 154 (78,6%) iş isə 2021-ci ildə daxil olmuşdur.




1. 2021-ci ildə daxil olan 154 işi 2020-ci ilin müvafiq dövründə daxil olan 149 işlə müqayisə etdikdə görünür ki, 2021-ci ilin hesabat dövründə daxil olan işlərin sayında 5 (3,2%) işin artması müşahidə olunur.

2. 2020 və 2021-ci illərə qalıq keçmiş işləri müqayisə etdikdə görünür ki, 2021-ci ilə qalıq keçən 21 (50%) iş azalmış, daxil olan 5 (3,3%) artmışdır.




3. 2021-ci ildə icraatda olmuş 196 işdən 175 (89,3%) iş baxılaraq yekunlaşdırılmış, 21 (10,7%) iş isə 2022-ci ilə qalıq kimi keçmişdir.

4. Yekunlaşdırılmış 175 işdən – 169 (96,5%) işə mahiyyəti üzrə baxılmış, 2 (1,2%) iş baxılmadan geri qaytarılmış, 3 (1,7%) işə Azərbaycan Respublikası MPM-nin 369-370-ci maddələrinə əsasən apellyasiya icraatına xitam verilmiş, 1 (0,6%) iş isə aidiyyatla bağlı olmuşdur.



5. 2021-ci ildə mahiyyəti üzrə baxılmış 169 işdən 123 iş üzrə (73,2%) məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, onlardan 74 (60%) qətnamə, 49 (40%) qərardad olmuşdur.

6. 2021-ci ildə baxılmış işlərdən 42 iş üzrə (24,9%) məhkəmə aktı ləğv edilmiş (onlardan 32 (76,2%) qətnamə, 10 (23,8%) qərardad), 123 iş üzrə (72,8%) yekun məhkəmə aktı dəyişdirilmədən saxlanılmış (onlardan 74 (60,2%) iş üzrə qətnamə, 49 (39,8%) qərardad), 4 (2,3%) iş üzrə qətnamə dəyişdirilmişdir. Ləğv edilmiş qətnamələrdən 21 iş üzrə yeni qətnamə çıxarılmış, 8 iş üzrə qətnamə ləğv edilərək icraata xitam verilmiş, 3 iş üzrə qətnamə ləğv edilərək ərizə baxılmamış saxlanılmışdır. 8 iş üzrə qərardad tam, 2 iş üzrə isə qismən ləğv olunaraq iş birinci instansiya məhkəməsinə göndərilmişdir.

7. 2020 və 2021-ci illərdə məhkəmə aktlarının ləğv statistikasını müqayisə etdikdə görünür ki, hesabat dövründə ləğv edilən işlər 2 iş (22,5%) artmışdır.




8. Baxılmış işlərdən 29 iş üzrə qətnamədən kassasiya şikayəti verilmişdir.

9. 2021-ci ildə məhkəmə aidiyyatı ilə bağlı cəmi 1 (0,5%) iş olmuşdur (tərəflərin ərizəsinə əsasən).

10. **Baxılmış işlərin kateqoriyalar üzrə bölgüsü aşağıdakı kimi olmuşdur:**

| İDDİALARIN KATEQORİYALARI | İŞİN SAYI | FAİZ |
|---|---|---|
| Əşya hüquqi münasibətlərdən, o cümlədən torpaq münasibətlərindən, əmlaka istifadə, sahiblik, mülkiyyət hüququnun müdafiəsindən irəli gələn mübahisələr | 9 | 5,3% |
| Alqı-satqı müqaviləsi | 36 | 21,3% |
| Daşınma müqaviləsi | 2 | 1,2% |
| İcarə müqaviləsi | 8 | 4,7% |
| Borc (kredit) müqaviləsi | 18 | 10,7% |
| Digər müqavilələr | 49 | 29% |
| Müqavilənin bağlanması, ləğvi və yaxud dəyişdirilməsi | 6 | 3,6% |
| Mülki hüquq pozuntularından (deliktlərdən) irəli gələn mübahisələr | 3 | 1,8% |
| Qiymətli kağızlarla bağlı mübahisələr | 2 | 1,2% |
| Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı mübahisələr | 11 | 6,5% |
| Vergi ödəyicisinin dövlət büdcəsinə olan borcunun ödənilməsinin təmin edilməsi üçün siyahıya alınmış əmlakın açıq hərracdan satılması | 8 | 4,7% |
| Digər mübahisələr | 17 | 10% |
| **Cəmi** | **169** | **100%** |

11. **Baxılmış işlərin subyekt tərkibi üzrə bölgüsü aşağıdakı kimi olmuşdur:**

| SUBYEKTLƏR | İŞİN SAYI | FAİZ |
|---|---|---|
| Xarici kommersiya hüquqi şəxslər (nümayəndəlik və filiallar) | 2 | 2,9% |
| Qeyri-kommersiya hüquqi şəxslər (sahibkarlıq fəaliyyətinin həyata keçirilməsindən irəli gələn tələblər) | - | - |
| Dövlət orqanı | 27 | 39,1% |
| Bələdiyyə | 2 | 2,9% |
| Publik hüquqi şəxs | 3 | 4,4% |
| Təbii inhisar subyektləri | 35 | 50,7% |
| **Cəmi** | **69** | **100%** |

## 2.4. Şirvan Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2021-ci ildə icraatında olan işlərə dair

## HESABATI

1. 2021-ci ildə kommersiya mübahisələri ilə bağlı məhkəmənin icraatında 283 iş olmuşdur. 2020-ci il ilə müqayisədə iş sayı 61,7% (108 iş) artmışdır. Belə ki, 2020-ci ildə həmin kollegiyanın icraatında 175 iş olmuşdur.

2. 2021-ci ildə İcraatda olmuş 283 işdən 63 iş (22,3%) 2020-ci ildən qalıq keçmiş, 220 iş (77,7%) isə 2021-ci ildə daxil olmuşdur. 2020-ci ildə isə qalıq işlərin sayı 33 (18,9%), daxil olan işlərin sayı isə 142 (81,1%) olmuşdur. Beləliklə, 2020-ci ildə 2021-ci il ilə müqayisədə qalıq işlərin sayı 47,6% (30 iş) az olmuşdur. 2021-ci ildə 2020-ci il ilə müqayisədə daxil olan işlərin sayında isə 54,9% (78 iş) artma baş vermişdir.




3. Kollegiya hesabat dövründə icraatında olan 283 işdən 260 işi (91,9%) yekunlaşdırmış, 23 iş (8,1%) isə növbəti ilə qalıq olaraq keçmişdir. 2020-ci il ilə müqayisədə növbəti ilə qalıq keçən işlər 36,5 % (40 iş) azalmışdır. Belə ki, 2020-ci ildən növbəti ilə 63 iş qalıq keçmişdir.



4. 2021-ci ildə yekunlaşdırılmış 260 işdən 257 işə (98,8%) baxılmış, 3 iş (1,1%) üzrə apellyasiya qeyri-mümkün hesab edilmişdir. Baxılmış 257 işdən 211 iş (82,1%) üzrə qətnamə, 46 iş (17,9%) üzrə qərardad qəbul edilmişdir.

5. Baxılmış işlərdən 199 iş (77,4%) üzrə birinci instansiya məhkəməsinin qətnaməsi/qərardadı dəyişdirilmədən saxlanılmış, 52 iş (20,2%) üzrə ləğv edilmiş, 6 iş (2,3%) üzrə isə dəyişdirilmişdir. 2020-ci ildə isə 24 iş üzrə birinci instansiya məhkəməsinin qətnaməsi/qərardadı ləğv edilmişdir. 2020-ci ildə 2021-ci il ilə müqayisədə ləğv edilmiş işlər 53,8 % (28 iş) az olmuşdur.




Ləğv edilmiş 52 işdən 40 iş (76,9%) üzrə qətnamə ləğv edilərək yeni qətnamə çıxarılmış, 2 iş (3,8%) üzrə qətnamə ləğv edilərək iş üzrə icraata xitam verilmiş, 10 iş (19,2%) üzrə qərardad ləğv edilərək iş birinci instansiya məhkəməsinə göndərilmişdir.

Baxılmış 257 işdən 46 iş (17,9%) əşya hüquqi münasibətlərdən, o cümlədən torpaq münasibətlərindən, əmlaka istifadə, sahiblik, mülkiyyət hüququnun müdafiəsindən irəli gələn mübahisələrlə bağlı, 211 iş (82,1%) isə müqavilə münasibətlərindən irəli gələn mübahisələrlə bağlı olmuşdur.

Müqavilə münasibətlərindən irəli gələn mübahisələrlə bağlı 211 işdən 1 iş (0,5%) icarə müqaviləsindən irəli gələn mübahisələrlə bağlı, 56 iş (26,5%) borc müqaviləsindən irəli gələn

mübahisələrlə bağlı, 3 iş (1,4%) lizing müqaviləsindən irəli gələn mübahisələrlə bağlı, 88 iş (41,7%) kredit müqaviləsindən irəli gələn mübahisələrlə bağlı, 1 iş (0,5%) sığorta müqaviləsindən irəli gələn mübahisələrlə bağlı, 26 iş (12,3%) isə digər müqavilələr üzrə mübahisələrlə bağlı olmuşdur. Həmçinin 2 iş (0,9%) müflisləşmə ilə bağlı, 22 iş (10,4%) vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı mübahisələrlə, 3 iş (1,4%) mülki hüquq pozuntularından (deliktlərdən) irəli gələn mübahisələrlə bağlı olmuşdur. 9 iş (4,3%) isə müqavilənin bağlanması, ləğvi və yaxud dəyişdirilməsi ilə bağlı olmuşdur.

## 2.5. Şəki Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 2021-ci ildə icraatında olan işlərə dair

## HESABATI

1. 2021-ci ildə Şəki Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının icraatında cəmi 149 iş (kommersiya icraatı üzrə - 148 (96,67%) iş, məhkəmə qətnamələrinin (qərarlarının) icrası qaydasında icraat üzrə - 1 (3,33%) material) olmuşdur. Təhlil zamanı müəyyən edilmişdir ki, 2020-ci il ilə müqayisədə 2021-ci ildə məhkəmənin icraatına daxil olan bu qəbildən olan işlərin sayı 148,33% (89 iş) artmışdır. Belə ki, 2020-ci ildə kollegiyanın icraatında 60 iş (kommersiya icraatı üzrə - 58 (96,67%) iş, məhkəmə qətnamələrinin (qərarlarının) icrası qaydasında icraat üzrə - 2 (3,33%) material) olmuşdur.

2. 2021-ci ildə Şəki Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının icraatında olan 149 işdən 12 (8,05%) iş 2020-ci ildən qalıq keçmiş, 137 iş (91,95%) isə 2021-ci ildə daxil olmuşdur. 2020-ci ildə isə 2019-cu ildən qalıq keçən işlərin sayı 6, daxil olan işlərin sayı isə 54 olmuşdur. Beləliklə, 2021-ci ildə 2020-ci il ilə müqayisədə qalıq işlərin sayında 100% (6 iş), daxil olan işlərin sayında isə 153,7% (83 iş) artma baş vermişdir.



3. Hesabat dövründə kollegiyanın icraatında olan 149 işdən 129-u (86,58%) yekunlaşdırılmış, 20 (13,42%) iş isə 2022-ci ilə qalıq keçmişdir.




4. Yekunlaşmış 129 məhkəmə işindən 124 işə (96,12%) apellyasiya qaydasında baxılmış, 2 (1,55%) iş üzrə (1 qətnamə və 1 qərardad) MPM-in 369-cu maddəsinə əsasən apellyasiya icraatına xitam verilmiş, 1 (0,78%) iş üzrə (qətnamə) MPM-in 366-cı maddəsinə əsasən apellyasiya mümkün sayılmamış, 2 (1,55%) iş (1 qətnamə və 1 qərardad) baxılmadan geri qaytarılmışdır.



5. Apellyasiya qaydasında baxılmış 124 işdən 94 (75,81%) iş üzrə apellyasiya şikayəti qətnamədən, 30 (24,19%) iş üzrə şikayət qərardaddan verilmişdir.




Həmin 124 kommersiya işindən 107 (86,29%) məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 10 (8,06%) məhkəmə aktı tam ləğv edilmiş, 3 (2,42%) məhkəmə aktı qismən ləğv edilmiş, 4 (3,23%) məhkəmə aktı dəyişdirilmişdir.



VI. 94 kommersiya işi üzrə qəbul edilmiş qətnamələrdən 81 (86,17%) qətnamə dəyişdirilmədən saxlanılmış, 7 (7,45%) qətnamə tam ləğv edilərək, yeni qətnamə qəbul edilmiş, 3 (3,19%) qətnamə qismən ləğv edilərək, yeni qətnamə qəbul edilmiş, 3 (3,19%) qətnamə dəyişdirilmişdir.




7. 30 kommersiya işi üzrə qəbul edilmiş qərardadlardan 26 (86,67%) qərardad dəyişdirilmədən saxlanılmış, 3 (10%) qərardad tam ləğv edilmiş, 1 (3,33%) qərardad dəyişdirilmişdir.




8. 2021-ci ildə apellyasiya qaydasında baxılmış 29 kommersiya işindən (28 (96,55%) iş üzrə qətnamədən və 1 (3,45%) iş üzrə qərardaddan) kassasiya şikayətləri verilmişdir.

9. 2020-ci il ilə müqayisədə 2021-ci ildə birinci instansiya məhkəməsinin ləğv olunan məhkəmə aktlarının sayı artmışdır. Belə ki, 2020-ci ildə apellyasiya qaydasında baxılmış 44 kommersiya işindən 37 (84,09%) məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 5 (11,36%) məhkəmə aktı tam ləğv edilmiş, 2 (4,55%) məhkəmə aktı dəyişdirilmişdir.

10. 2021-ci ildə isə apellyasiya qaydasında baxılmış 124 kommersiya işindən 107 (86,29%) məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 10 (8,06%) məhkəmə aktı tam ləğv

edilmiş, 3 (2,42%) məhkəmə aktı qismən ləğv edilmiş, 4 (3,23%) məhkəmə aktı dəyişdirilmişdir.

**2021-Cİ İLDƏ BAXILMIŞ İŞLƏRİN KATEQORİYALAR ÜZRƏ BÖLGÜSÜ**

| İDDİALARIN KATEQORİYALARI | İŞİN SAYI | FAİZ |
|---|---|---|
| Mülkiyyət hüququ ilə əlaqədar mübahisələr | 2 | 1,61% |
| Torpaq mübahisələri | 1 | 0,81% |
| Müqavilənin şərtlərinin əhəmiyyətli dərəcədə pozulması ilə bağlı ləğvinə dair | 2 | 1,61% |
| Alqı-satqı müqaviləsi | 6 | 4,84% |
| İcarə müqaviləsi | 4 | 3,23% |
| Borc müqaviləsi | 1 | 0,81% |
| Kredit müqaviləsi | 68 | 54,84% |
| Sair müqavilədən irəli gələn öhdəliklər üzrə mübahisələr | 16 | 12,90% |
| Mülki hüquq pozuntularından (deliktlərdən) əmələ gələn öhdəliklər üzrə mübahisələr | 2 | 1,61% |
| Təbii inhisar subyektləri (Azəriqaz, Azərsu və Azərişıq) ilə təbii qaz, su, elektrik və ya istilik enerjisindən istifadə ilə bağlı yaranan mübahisələr | 8 | 6,45% |
| Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında | 5 | 4,03% |
| Digər mübahisələr | 9 | 7,26% |
| Cəmi | 124 | 100% |

**2021-Cİ İLDƏ BAXILMIŞ İŞLƏRİN SUBYEKT TƏRKİBİ ÜZRƏ BÖLGÜSÜ**

| SUBYEKT TƏRKİBİ | SAY |
|---|---|
| Fərdi sahibkar | 94 |
| Kommersiya hüquqi şəxs | 127 |
| Dövlət orqanı | 19 |
| Publik hüquqi şəxs | 1 |
| Təbii inhisar subyektləri | 11 |

## 2.6. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin 2021-ci ildə icraatında olan işlərə dair

## HESABATI

1. 2021-ci ildə Naxçıvan MR Ali Məhkəməsinin Kommersiya kollegiyasının icraatına cəmi 7 daxil iş olmuşdur. Onlardan 2 iş (28.57%) 2020-ci ildən qalıq keçmiş, 5 iş (71.43%) isə 2021-ci ildə daxil olmuşdur.

2. 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə ümumən icraatda olan iş sayı azalmışdır. Belə ki, 2020-ci ildə kollegiyanın icraatına 10 iş daxil olmuşdursa, 2021-ci ildə kollegiyanın icraatına 7 iş daxil olmuşdur. Kollegiyanın icraatına daxil olmuş iş sayı 3 iş (10%) azalmışdır.

3. Ötən ilin müvafiq dövrü ilə müqayisədə qalıq keçən işlərin sayında artma, daxil olan işlərin sayında isə azalma müşahidə olunmuşdur. Belə ki, 2020-ci ildə kollegiyanın icraatına cəmi 10 iş daxil olmuşdursa (2019-cu ildən 1 iş qalıq qalmışdır), 2021-ci ildə kollegiyanın icraatına ümumilikdə daxil olan 7 işdən 2 iş (28. 57%) ötən ildən qalıq qalmış, 5 iş (71.43%) isə cari ildə daxil olmuşdur.




4. 2021-ci ildə icraatda olmuş ümumi işlərdən 6 iş (85.71%) yekunlaşmış, 1 iş (14.29%) isə növbəti ilə qalıq keçmişdir.



5. Yekunlaşmış işlər üzrə birinci instansiya məhkəməsinin 3 qətnaməsi (50%) və 2 qərardadı (33,33%) dəyişdirilmədən saxlanılmış, 1 qətnaməsi (16,67%) dəyişdirilmişdir.




6. Birinci instansiya məhkəməsinin məhkəmə aktlarının apellyasiya qaydasında baxılmasının nəticələri üzrə 3 qətnaməsi və 2 qərardadı dəyişdirilmədən saxlanılmışdır.

7. 2021-ci ildə ləğv edilən və ya dəyişdirilən qətnamə (qərardad) olmamışdır.

8. Keçən ilin müvafiq dövrü ilə müqayisədə məhkəmə aktlarının ləğvi statistikasında azalma müşahidə edilmişdir. Belə ki, 2020-ci ildə 10 iş üzrə 2 qətnamə (20%) ləğv edilmişdirsə, 2021-ci ildə ləğv edilən və ya dəyişdirilən qətnamə (qərardad) olmamışdır.

9. 2021-ci ildə baxılmış 6 işdən 2 kassasiya şikayəti (1 qətnamə və 1 qərardad) (33.33%) verilmişdir.

10. Məhkəmə aidiyyəti ilə bağlı işlərə baxılmamışdır.

11. Baxılmış işlərin kateqoriyalar üzrə bölgüsü:

- Əşya hüquqi münasibətlərdən, o cümlədən torpaq münasibətlərindən, əmlaka istifadə, sahiblik, mülkiyyət hüququnun müdafiəsindən irəli gələn mübahisələr - 1 iş;
- Borc (kredit) müqaviləsi- 4 iş;
- Öhdəliklərin icra edilməməsi ilə bağlı – 1 iş.

# *III. Ölkə üzrə birinci instansiya məhkəmələrinin fəaliyyətinə dair hesabat*[2]

## 3.1. 2021-ci il ərzində Bakı Kommersiya Məhkəməsinin icraatında olmuş işlər və onların 2020-ci il ilə müqayisəli təhlili

2021-ci il ərzində Bakı Kommersiya Məhkəməsinin icraatında cəmi 6737 iş olmuş, 5908 (87,7%) iş müvafiq dövr ərzində məhkəmənin icraatına daxil olmuş, 829 (12,3%) iş 2020-ci ildən qalıq keçmişdir. 2020-ci ilin müvafiq hesabat dövründə isə icraatda 4162 iş olmuş, 574 (13,8%) iş 2019-cu ildən qalıq olaraq keçmiş, həmin dövr ərzində məhkəmənin icraatına 3588 (86,2%) iş daxil olmuşdur.







2021-ci il ərzində Bakı Kommersiya Məhkəməsinin icraatında olan 6737 iş, 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə məhkəmənin icraatında olmuş 4162 işlə müqayisə edildikdə görünür ki, 2021-ci il ərzində icraatda olan iş sayında 2575 iş artmışdır.

2021-ci il ərzində məhkəmənin icraatına daxil olan 5908 iş, keçən ilin müvafiq dövrü ərzində daxil olan 3588 işlə müqayisə edildikdə görünür ki, 2021-ci il ərzində daxil olan iş sayında 2320 iş artmışdır.

2020 və 2021-ci ilə qalıq keçmiş işləri müqayisə etdikdə görünür ki, 2021-ci ilə qalıq keçən işlərin sayı 829 (12,3%), 2020-ci ilə qalıq keçən işlərin saylı 574 (13,8%) olmuşdur. 2021-ci ildə qalıq keçən işlərin sayında 255 iş artmışdır.




---

[2] Ölkə üzrə birinci instansiya məhkəmələrinin fəaliyyətinə dair hesabat hazırlanarkən istifadə olunmuş məlumatlar müvafiq olaraq hər bir məhkəmənin özü tərəfindən təqdim olunmuşdur.

2021-ci ilin birinci yarısında icraatda olmuş ümumilikdə 6737 işdən 6044-nə (89,7%) mahiyyəti üzrə baxılmış, 693 (10,3%) iş növbəti ilə qalıq olaraq keçmişdir.

2021-ci il ərzində daxil olan iddia ərizələrindən 896-sı (13,3%) geri qaytarılmış, iddianın yolverilməzliyinə görə 146 (2,2%) iddia ərizəsinin qəbulundan imtina edilmişdir.




2021-ci il ərzində baxılmış işlər üzrə 4229 (62,7%) iş üzrə qətnamə ( 443 (6,6%) rədd, 603 (8,9%) qismən təmin, 3786 (56,2%) tam təmin edilmişdir) qəbul edilmiş, 212 (3,1%) iş üzrə icraata xitam verilmiş, 500 (7,4%) iş üzrə iddia ərizəsi baxılmamış saxlanılmışdır.




2021-ci il ərzində Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 191.2.1-ci maddəsinin tələbləri qaydasında işə baxılmamışdır.

2021-ci il ərzində ümumilikdə 61 iş aiddiyatı üzrə baxılması üçün digər məhkəmələrə göndərilmişdir. İşin aidiyyatla baxılması üçün başqa məhkəməyə göndərilməsi ilə bağlı verilmiş vəsatətlərdən 28-i rədd edilmişdir. Məhkəmə aidiyyatının müəyyən olunması 40 iş Azərbaycan Respublikası Ali Məhkəməsinə göndərilmişdir.

**2021-ci ərzində Bakı Kommersiya Məhkəməsində baxılmış işlərin kateqoriyalar üzrə bölgüsü**

| İddiaların kateqoriyaları | İşin sayı | Faizi |
|---|---|---|
| Mülkiyyət hüququ ilə əlaqədar mübahisələr | 34 | 0,5 % |
| Alqı-satqı müqaviləsi | 702 | 10,4 % |
| icarə müqaviləsi | 141 | 20,1 % |
| borc müqaviləsi | 57 | 0,8 % |
| kredit müqaviləsi | 297 | 4,4 % |
| zaminlik müqaviləsi | 4 | 0,1 % |
| daşınma müqaviləsi | 79 | 1,8 % |
| sığorta müqaviləsi | 59 | 0,9 % |
| bank əmanəti və bank hesabatı müqaviləsi | 7 | 0,1 % |
| Sair müqavilələrdən əmələ gələn öhdəlik üzrə mübahisələri | 522 | 7,7 % |
| Qiymətli kağızlar üzrə öhdəliklər | 6 | 0,1 % |
| müqavilənin etibarsız hesab edilməsi, bağlanması, dəyişdirilməsi və ləğv edilməsi ilə bağlı yaranmış mübahisələr | 73 | 1,1 % |
| Mülki hüquq pozuntularından (deliktlərdən) irəli gələn mübahisələr üzrə | 114 | 1,7 % |
| vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı mübahisələr | 2312 | 34,3 % |
| əmr icraatı | 10 | 0,1 % |
| vergi mübahisələri | 118 | 1,7 % |
| Fiziki şəxslərdən vergi və dövlət məcburi sığortası qalığının tələbi | 8 | 0,1 % |
| Digər mübahisələr | 2194 | 32,5 % |

## 2021-ci ildə baxılmış işlərin subyekt tərkibi üzrə bölgüsü

| Dövlət orqanı | İşin sayı | Faizi |
|---|---|---|
| Dövlət orqanı | 2438 | 36,2 % |
| Qeyri-kommersiya hüquqi şəxs (Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsindən irəli gələn tələblər) | 58 | 0,9 % |
| Publik hüquqi şəxs | 13 | 0,2 % |
| hüquqi şəxsin ləğv edicisi | 12 | 0,2 % |
| Təbii inhisar mövqeyi | 295 | 4,4 % |
| Xarici kommersiya hüquqi şəxslərin nümayəndəlik və filialları | 127 | 1,9 % |
| Fərdi sahibkar ( hər iki tərəf) | 68 | 1 % |
| Kommersiya hüquqi şəxslər (hər iki tərəf) | 2217 | % |
| Qarışıq tərkibdə, yəni tərəfləri fərdi sahibkar, kommersiya hüquqi şəxs olan işlər | 1509 | 33 % |

- 2021-ci il il ərzində ümumilikdə 120 işə qiyabi icraat qaydasında baxılmışdır. 20 iş üzrə qiyabi qətnamə sonradan cavabdeh tərəfindən verilmiş ərizəyə əsasən ləğv edilmişdir.

- 2021-ci il ərzində Bakı Kommersiya Məhkəməsinə ümumilikdə 65 məhkəmə tapşırığı daxil olmuş, 32 ədəd məhkəmə tapşırığı icra edilmiş, 27 –si geri qaytarılmışdır. Məhkəmə tapşırıqları Türkiyə Cumhuriyyəti, Rusiya Federasiyası Litva, Ukrayna, Maldova və Qazaxıstan Respublikasının məhkəmələri tərəfindən göndərilmişdir.

2021-ci il ərzində Bakı Kommersiya Məhkəməsində icraatında olmuş işlərdən verilmiş apellyasiya şikayətlərinə və onların nəticələrinə dair məlumatlar Bakı Apellyasiya Məhkəməsi tərəfindən təqdim edilmədiyindən və həmin məlumatların elektron məhkəmə informasiya sistemindən əldə edilməsi mümkün olmadığından bununla bağlı məlumatın təqdim edilməsi hal-hazırda qeyri-mümkündür. Sözügedən məlumatlar Bakı Kommersiya Məhkəməsinə göndərildikdən sonra sizə təqdim ediləcəkdir.

# 3.3. GƏNCƏ KOMMERSİYA MƏHKƏMƏSİ

2021-ci ildə məhkəmənin icraatında cəmi 2268 iş olmuşdur. Onlardan 207 iş 2020-ci ildən hesabat dövrünün əvvəlinə qalıq keçmiş, 2061 iş isə hesabat dövründə daxil olmuşdur. 2020-ci ilin ilə müqayisədə ümumən işlərin sayı 1167 iş artmışdır. 2020-ci ilin əvvəlinə qalıq keçmiş işlərin sayı 86, daxil olan işlərin sayı isə 1015 olmuşdur.




2021-ci ildə icraatda olmuş 2047 işə (90,25%) baxılmış, o cümlədən 1776 iş (78,3%) qətnamə çıxarılmaqla həll edilmiş, 30 iş (1,32%) üzrə icraata xitam verilmiş (onlardan 2 iş (0,09%) üzrə barışıq sazişi təsdiq edilməklə), 98 iş (4,32%) üzrə ərizələr baxılmamış saxlanılmış, 122 iş (5,37%) üzrə iddia ərizələri geri qaytarılmış (onlardan 14 iş (0,61%) üzrə iddia ərizəsinin icraata qəbulundan imtina olunmuş), 221 iş (9,74%) isə 2022-ci ilə qalıq keçmişdir.



2021-ci ildə qətnamə çıxarılmaqla həll edilən 1776 işdən 1559 iş (75,4%) üzrə iddia təmin edilmiş, 156 iş (19,1%) üzrə iddia qismən təmin edilmiş, 61 iş (5,5%) üzrə iddia rədd edilmişdir.




2021-ci ildə 4 iş ərazi aidiyyəti üzrə digər kommersiya məhkəmələrinə, 2 iş məhkəmə aidiyyəti üzrə ümumi məhkəmələrə göndərilmiş, daxil olmuş işlərdən 15 iş məhkəmə aidiyyəti ilə bağlı fikir ayrılığına münasibət bildirilməsi kassasiya instansiyası məhkəməsinə göndərilmişdir.

2021-ci ildə 1 iş üzrə işin məhkəmə aidiyyəti üzrə göndərilməsi barədə vəsatət təmin edilməmiş, 2 iş üzrə işin məhkəmə aidiyyəti üzrə ümumi məhkəmələrə göndərilməsi barədə qərardad qəbul edilmiş, həmin qərardadlardan verilən şikayət təmin edilməyərək iş materialları ilə birlikdə Azərbaycan Respublikası Ali Məhkəməsinə göndərilmişdir.

## 2021-ci ildə baxılmış işlərin kateqoriyalar üzrə bölgüsü

| İDDİALARIN KATEQORİYALARI | İŞ SAYI | FAİZİ |
|---|---|---|
| Korporativ mübahisələr | 2 | 0,09% |
| Əşya hüquqi münasibətlərdən, o cümlədən torpaq münasibətlərindən, əmlaka istifadə, sahiblik, mülkiyyət hüququnun müdafiəsindən irəli gələn mübahisələr | 4 | 0,17% |
| Müqavilə münasibətlərindən irəli gələn mübahisələr<br>Onlardan; | 177 | 7,8% |
| 1. Alqı-satqı müqaviləsi | 129 | 5,68% |
| 2. Daşınma müqaviləsi | 1 | 0,04% |
| 3. Borc (kredit) müqaviləsi | 25 | 1,1% |
| 4. İcarə müqaviləsi | 11 | 0,48% |
| 5. İpoteka müqaviləsi | 2 | 0,09% |
| 6.Lizinq müqaviləsi | 26 | 1,14% |
| 7.Müqavilənin ləğvi | 4 | 0,17% |
| Mülki hüquq pozuntularından (deliktlərdən) irəli gələn mübahisələr | 4 | 0,17% |
| Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı mübahisələ | 1282 | 56,52% |
| Vergi ödəyicisinin dövlət büdcəsinə olan borcunun ödənilməsinin təmin edilməsi üçün siyahıya alınmış əmlakın açıq hərracdan satılması | 227 | 10% |
| Kreditorun tələbləri üzrə əmr icraatı | 24 | 1,05% |
| Sair işlər | 215 | 9,47% |

## 2021-ci ilin birinci yarısında baxılmış işlərin subyekt tərkibi üzrə bölgüsü

| SUBYEKT TƏRKİBİ | SAY |
|---|---|
| Dövlət orqanı | 2062 |
| Bələdiyyə | 4 |
| Təbii inhisar subyektləri (Azəriqaz, Azərişıq, Azərsu) | 62 |
| Publik Hüquqi Şəxs | 25 |
| Kommersiya Hüquqi şəxs | 115 |

2021-ci ildə xarici dövlətlərin məhkəmələri tərəfindən 2 məhkəmə tapşırığı daxil olmuşdur. 1 iş üzrə məhkəmə tapşırığı Rusiya Federasiyasının Ədliyyə Nazirliyindən Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə daxil olmuş Əqli Mülkiyyət Məhkəməsinin Ruslan Qələndərova sənədlərin təqdim edilməsinə barədə olmuşdur. Həmin iş üzrə Qələndərov Ruslan Tahir oğluna sənədlərin təqdim edilməsinə dair məhkəmə tapşırığının icrası mümkün olmadığından, məhkəmə tapşırığı və ona əlavə edilmiş sənədlər Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə geri qaytarılmışdır. 1 iş üzrə isə Rusiya Federasiyasının Moskva Vilayətinin Arbitraj Məhkəməsinin "Global Snack" MMC barəsində olan məhkəmə tapşırığı daxil olmuş və icra edilərək məhkəmə tapşırığında qeyd olunan sənədlər Rusiya Federasiyasının Moskva Vilayətinin Arbitraj Məhkəməsinə təqdim edilməsi üçün Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Beynəlxalq Əməkdaşlıq İdarəsinə göndərilmişdir.

2021-ci ildə məhkəmə tapşırığı qaydasında 2 işə baxılmışdır. 1 iş üzrə Gəncə Kommersiya Məhkəməsinin 20.04.2021-ci il tarixli, 2-2(82)-393/2021 nömrəli məhkəmə tapşırığı Azərbaycan Respublikası Ədliyyə Nazirliyi vasitəsilə Birləşmiş Ərəb Əmirliklərinin səlahiyyətli məhkəməsinə göndərilmişdir. Eyni zamanda Gəncə Kommersiya Məhkəməsi tərəfindən Birləşmiş Ərəb Əmirliklərinin səlahiyyətli məhkəməsinə göndərilmiş məhkəmə tapşırığına cavab alınanadək iddiaçı Mamedov Vilayət Rustam oğlunun cavabdeh «Soyuz General Trading» Məhdud Məsuliyyətli Cəmiyyətinə qarşı pul tələbinə dair kommersiya işinin icraat dayandırılmışdır.

1 iş üzrə məhkəmə tapşırığı Türkiyə Respublikasının Trabzon şəhərinin Məhkəməsinə göndərilməsi üçün Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Beynəlxalq Əməkdaşlıq İdarəsinə göndərilməlidir.

2021-ci ilin birinci yarısında baxılmış 193 iş üzrə qətnamələrdən, 42 iş üzrə qərardadlardan (kateqoriyalar üzrə 36 iş kredit müqaviləsi, 26 iş alqı-satqı müqaviləsi, 5 iş

borc müqaviləsi, 3 iş ipoteka müqaviləsi, 1 iş podrat müqaviləsi, 5 iş lizinq müqaviləsi, 122 iş sair öhdəlik üzrə mübahisələr, 1 iş sığarta müqaviləsi, 3 iş torpaq mübahisəsi, 28 iş vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı mübahisələr, 19 iş sair işlərə dair mübahisələr) apellyasiya şikayəti verilmişdir. Onlardan 41 iş üzrə şikayət Azərbaycan Respublikası MPM-in 363-cü maddəsinə əsasən geri qaytarılmışdır.

İşdə iştirak etməyən şəxs tərəfindən Azərbaycan Respublikası MPM-in 357.2-ci maddəsinə müvafiq olaraq 1 iş üzrə şikayət verilmiş və şikayət təmin edilməyərək işlə birlikdə baxılması üçün Gəncə Apelyasiya Məhkəməsinə göndərilmişdir. Gəncə Apelyasiya Məhkəməsi tərəfindən də şikayət təmin edilməmiş və iş baxılması üçün Gəncə Kommersiya Məhkəməsinə geri qaytarmışdır.

## 2021-ci il ərzində Sumqayıt Kommersiya Məhkəməsinin icraatında olmuş işlər və onların 2020-ci il ilə müqayisəli təhlili

2021-ci il üzrə məhkəmənin icraatına cəmi 2002 iş daxil olmuş, onlardan 187 iş (9,4%) 2020-ci ildən qalıq keçmiş, 1815 iş (90,6%) isə 2021-ci ilin 01 yanvar – 30 dekabr tarixlərində daxil olmuşdur.

Ötən illə müqayisədə ümumən işlərin sayı 988 iş (97,4%) artmış, qalıq keçən işlərin sayı 92 iş (50,1%) azalmış, daxil olan işlərin sayı 879 iş (93,9%) artmışdır.

2021-ci ildə daxil olmuş 2002 işdən 340 iddia ərizəsi(17%) geri qaytarılmış, 45 iddia ərizəsinin (2,3%) iddianın yolverilməzliyinə görə qəbulundan imtina edilmiş, 1522 işə (76%) baxılmış, 95 iş (4,7%) isə qalıq olaraq növbəti ilə keçmişdir.






Baxılmış işlərdən 1304 iş (85,7%) üzrə qətnamə çıxarılmış (onlardan 1187 iş (91%) təmin, 79 iş (6%) qismən təmin, 38 iş (3%) rədd edilmişdir), 16 iş (1%) üzrə icraata xitam verilmiş (2 iş (12,5%) üzrə barışıq sazişi bağlanılmışdır), 195 iş üzrə (12,8%) iddia ərizəsi baxılmamış saxlanılmış, 7 iş (0,5%) aidiyyəti üzrə başqa məhkəməyə göndərilmişdir.







Məhkəmə aidiyyəti qaydasında 6 işə baxılmışdır, onlardan 1 iş üzrə aidiyyət haqqında ərizə təmin edilərək iş aidiyyəti üzrə göndərilmiş, 1 iş üzrə aidiyyət haqqında ərizə təmin edilməmişdir, 4 iş üzrə məhkəmələr arasında fikir ayrılığı olması əsası ilə kassasiya instansiyası məhkəməsinə göndərilmişdir.

Barəsində şikayət verilmiş aidiyyət haqqında qərardadın sayı 1 olmuşdur, şikayət təmin edilməmiş və iş materialı ilə birlikdə baxılması üçün kassasiya instansiyası məhkəməsinə göndərilmişdir.

## 2021-ci ildə baxılmış işlərin kateqoriyalar üzrə bölgüsü

| İddiaların kateqoriyaları | İş sayı | Faizi |
|---|---|---|
| Korporativ mübahisələr | 1 | 0,05% |
| Əşya hüququ münasibətlərdən, o cümlədən torpaq münasibətlərindən, əmlaka istifadə, sahiblik, mülkiyyət hüququnun müdafiəsindən irəli gələn mübahisələr | 10 | 0,5% |
| Müqavilə münasibətlərindən irəli gələn mübahisələr | 475 | 23,7% |




| Müqavilə münasibətlərindən irəli gələn mübahisələr | İş sayı | Faizi |
|---|---|---|
| Alqı-satqı müqaviləsi | 142 | 7,09 |
| Daşınma müqaviləsi | 7 | 0,35 |
| İcarə müqaviləsi | 30 | 1,50 |
| Borc (kredit) müqaviləsi | 64 | 3,20 |
| İpoteka | 3 | 0,15 |
| Lizinq müqaviləsi | 49 | 2,45 |
| Podrat müqaviləsi | 11 | 0,55 |
| | | |
| Tapşırıq müqaviləsi | 5 | 0,25 |
| Sığorta müqaviləsi | 1 | 0,05 |
| Digər müqavilələr | 38 | 1,90 |
| Müqavilənin etibarsızlığı | 2 | 0,10 |
| Müqavilənin bağlanması, ləğvi və yaxud dəyişdirilməsi | 8 | 0,40 |
| Mülki hüquq pozuntularından (deliktlərdən) irəli gələn mübahisələr | 17 | 0,85 |
| Təbii inhisar subyektləri (Azəriqaz, Azərsu və Azərişıq) ilə təbii qaz, su, elektrik və ya istilik enerjisindən istifadə ilə bağlı yaranan mübahisələr | 55 | 2,75 |
| Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı mübahisələr | 1301 | 64,99 |
| Vergi ödəyicisinin dövlət büdcəsinə olan borcunun ödənilməsinin təmin edilməsi üçün siyahıya alınmış əmlakın açıq hərracdan satılması | 121 | 6,04 |
| Bankın öhdəliklərinin könüllü restrukturizasiyası | 2 | 0,10 |
| İtirilmiş sənədlər üzrə onları təqdim edən şəxsin hüquqlarının bərpa edilməsi (çağırış icraatı) | 2 | 0,10 |
| Digər mübahisələr | 51 | 2,55 |

## Baxılmış işlərin subyekt tərkibi üzrə bölgüsü

| Subyekt tərkibi | Say |
|---|---|
| Xarici kommersiya hüquqi şəxslər (nümayəndəlik və filiallar) | 21 |
| Qeyri-kommersiya hüquqi şəxslər (sahibkarlıq fəaliyyətinin həyata keçirilməsindən irəli gələn tələblər) | 7 |
| Dövlət orqanı | 1473 |
| Bələdiyyə | 10 |
| Publik hüquqi şəxs | 12 |
| Təbii inhisar subyektləri | 90 |




Baxılmış işlərdən 211 iş üzrə (142 qətnamə və 69 qərardadlar üzrə) apellyasiya şikayətləri verilmiş, həmin şikayətlərdən 15-i Azərbaycan Respublikası MPM-in 363-cü maddəsinə əsasən geri qaytarılmışdır. İşdə iştirak etməyən şəxslər tərəfindən Azərbaycan Respublikası MPM-in 357.2-ci maddəsinə müvafiq olaraq apellyasiya şikayəti verilməmişdir.

Qiyabi icraat qaydasında 6 işə baxılmışdır,1 iş üzrə qiyabi qətnamə sonradan ləğv edilmişdir.

Xarici dövlətlərin məhkəmələri tərəfindən məhkəmə tapşırığı qaydasında 7 müraciət daxil olmuşdur (1 müraciət Türkiyə Respublikası, 5 müraciət Rusiya Federasiyası, 1 müraciət Ukrayna)

## 3.4. 2021-ci il ərzində Şirvan Kommersiya Məhkəməsinin icraatında olmuş işlər və onların 2020-ci il ilə müqayisəli təhlili

2021-ci il üzrə Şirvan Kommersiya Məhkəməsinin icraatında cəmi 3134 sayda iş olmuşdur. Onlardan 216 iş (6.9%) 2020-ci ildən qalıq keçmiş, 2918 iş (93.1%) isə 2021-ci ərzində daxil olmuşdur. 2020-ci il ilə müqayisədə Şirvan Kommersiya Məhkəməsinin icraatında olan iş sayı artmış (2020-ci üzrə 1630 sayda, 2021-ci il üzrə 3134 sayda iş) 2020-ci il üzrə müqayisədə iş sayında 92.27% artım olmuşdur. 2020-cu il üzrə Şirvan Kommersiya Məhkəməsinin icraatında qalıq keçən işlərin sayı 236, daxil olan işlərin sayı isə 1394 olmuşdur. 2021-ci ildə ötən ilin müvafiq dövrü ilə müqayisədə qalıq keçən işlərin sayı azalmış (216), daxil olan işlərin sayı isə artmışdır (2918). Qalıq işlərə nisbətdə 9.3 % azalma olmuş, daxil olan işlərə nisbətdə isə 109.32 % artım olmuşdur.




2021-ci il üzrə icraatda olmuş 3134 işdən 2909-a mahiyyəti üzrə baxılmış (92.8 %), 225 iş (7.2%) qalıq olaraq növbəti ilə keçmişdir. Daxil olan iddia ərizələrindən 288-i (9.9%) geri qaytarılmışdır. Daxil olan ərizələrdən isə xüsusi icraat qaydasında 20-i (0.69%), əmr icraatı qaydasında 96-ı (3.3%) geri qaytarılmışdır. (və ya iddianın yolverilməzliyinə görə qəbulundan imtina edilmişdir). Ümumilikdə baxılan işlər üzrə geri qaytarılan işlərin sayı 404 (13.88 %) olmuşdur.



2021-ci il üzrə baxılmış 2909 işdən 2370 iş üzrə (81.48%) qətnamə çıxarılmış, onlardan 2075-i (87.5%) təmin, 249-u (10.5%) qismən təmin və 46-ı (2%) rədd edilmişdir. 100 iş (3.44%) üzrə iddia ərizəsi baxılmamış saxlanılmış, 22 iş (0.76) aidiyyəti üzrə (həm ərazi, həm məhkəmə aidiyyəti) başqa məhkəmələrə göndərilmiş, 13 iş (0.44%) üzrə icraata xitam verilmişdir (onlardan 1-i barışıq sazişi ilə yekunlaşmışdır). MPM-in XL-VII fəslinin (mediasiya prosesi nəticəsində bağlanmış barışıq sazişinin təsdiq edilməsi) tələbləri qaydasında 1 işə (0.03%) baxılmış və ərizə qismən təmin edilmişdir. MPM-in 191.2-1-ci maddəsinin tələbləri qaydasında (tərəflər arasında mübahisə mediasiya vasitəsilə həll edildikdə, barışıq sazişi, həll edilmədikdə isə mediasiya prosesinin nəticələri barədə protokol məhkəməyə təqdim olunur. Tərəflərin barışıq sazişini təsdiq etdikdə məhkəmə bu barədə qərardad çıxararaq, bu qərardadla eyni zamanda iş üzrə icraata xitam verir. Məhkəmə tərəfindən təsdiq edilən barışıq sazişinin şərtləri qərardadda göstərilməlidir.) heç bir işə baxılmamışdır.






Məhkəmə aidiyyəti ilə bağlı cəmi 20 (0.69%) işə baxılmışdır. Baxılmış işlərdən 10-u (50%) məhkəmənin öz təşəbbüsü ilə aidiyyəti məhkəməyə göndərilmiş; 9 iş (48%) üzrə məhkəmələr arasında fikir ayrılığı olması əsası ilə kassasiya instansiyası məhkəməsinə göndərilmiş, 1 iş (2%) üzrə aidiyyət haqqında (aidiyyətin dəyişdirilməsi haqqında) verilmiş ərizə təmin edilməmişdir. Aidiyyət haqqında yalnız 1 iş üzrə (9.07%, (şikayət verilə bilən qərardadlara nisbətdə)) qərardaddan şikayət verilmişdir. Həmin iş üzrə şikayət təmin edilməyərək iş materialı ilə birlikdə baxılması üçün kassasiya instansiyası məhkəməsinə göndərilmişdir.




## 2021-Cİ İLDƏ DAXİL OLMUŞ İŞLƏRİN KATEQORİYALAR ÜZRƏ BÖLGÜSÜ

| İDDİALARIN KATEQORİYALARI | İŞ SAYI | FAİZİ |
|---|---|---|
| Əmlakdan istifadə, sahiblik, mülkiyyət hüququnun müdafiəsindən irəli gələn mübahisələr üzrə | 4 | 0,14% |

| | | |
|---|---|---|
| Torpaq münasibətlərindən irəli gələn mübahisələr üzrə | 8 | 0,28% |
| Alqı-satqı müqaviləsi | 106 | 3,64% |
| İcarə müqaviləsi | 27 | 0,09% |
| Borc (kredit) müqaviləsi | 249 | 8,56% |
| İpoteka müqaviləsi | 3 | 0,01% |
| Zaminlik müqaviləsi | 1 | 0,03% |
| Lizinq müqaviləsi | 35 | 1,2% |
| Podrat müqaviləsi | 3 | 0,1% |
| Tapşırıq müqaviləsi | 4 | 0,14% |
| Daşıma müqaviləsi | 1 | 0,3% |
| Digər müqavilələr | 272 | 9,35% |
| Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı mübahisələr üzrə | 1496 | 51,43% |
| Vergi ödəyicisinin dövlət büdcəsinə olan borcunun ödənilməsinin təmin edilməsi üçün siyahıya alınmış əmlakın açıq hərracdan satılması ilə bağlı mübahisələr üzrə | 418 | 14,37% |
| Müqavilənin ləğvi | 5 | 0,17% |
| Müqavilənin dəyişdirilməsi | 1 | 0,03% |
| Müqavilənin etibarsızlığından irəli gələn mübahisələr üzrə | 2 | 0,06% |
| Müflisləşmə ilə bağlı mübahisələr üzrə | 1 | 0,03% |
| Mülki hüquq pozultularından (deliktlərdən) irəli gələn mübahisələr üzrə | 3 | 0,1% |
| Təbii inhisar subyektləri (Azəriqaz, Azərsu və Azərişıq) ilə təbii qaz, su, elektrik və ya istilik enerjisindən istifadə ilə bağlı yaranan mübahisələr üzrə | 29 | 1% |

**Baxılmış işlərin subyekt tərkibi üzrə bölgüsü:**

- Xarici kommersiya hüquqi şəxslər (nümayəndəlik və filiallar) üzrə -5 iş;
- Dövlət orqanı üzrə - 2003 iş
- Bələdiyyələr üzrə - 33 iş;
- Publik hüquqi şəxslər üzrə -24 iş;
- Təbii inhisar subyekləri üzrə 60 iş. (Azəriqaz-25, Azərışıq-33, Azərsu-2)
- Qeyri-kommersiya hüquqi şəxslər üzrə hər hansı işə baxılmamışdır.



Baxılmış işlərdən ümumən 139 apellyasiya şikayəti (4.78%) verilib. Qətnamələrdən verilən şikayətlərin sayı 121 (87.05%), qərardadlardan verilən şikayətlərin sayı 18 (12.95 %) olmuşdur. Və həmin apellyasiya şikayətlərindən 21-i (15.1%) AR MPM-in 363-cü maddəsinə əsasən geri qaytarılmışdır.

* Müvəqqəti təminat tədbirləri (MTT indeksi ilə) barədə qərardadlara aid 3 iş üzrə apellyasiya şikayəti verilmişdir.

* Məhkəmə qərarlarının icrası (8-2 indeksi) barədə qərardadlara aid 4 iş üzrə apellyasiya şikayəti verilmişdir.

İşdə iştirak etməyən şəxslər tərəfindən Azərbaycan Respublikası MPM-in 357.2-ci maddəsinə müvafiq olaraq heç bir apellyasiya şikayəti verilməmişdir.




Qiyabi icraat qaydasında heç bir işə baxılmamışdır.Heç bir iş üzrə qiyabi qətnamə sonradan ləğv edilməmişdir.Məhkəmə tapşırığı qaydasında heç bir işə baxılmamışdır.Xarici dövlətlərin məhkəmələri tərəfindən məhkəmə tapşırığı qaydasında 1 (bir) müraciət daxil olmuşdur.(Rusiya Federasiyası)



### 3.5. 2021-ci il ərzində Şəki Kommersiya Məhkəməsinin icraatında olmuş işlər və onların 2020-ci il ilə müqayisəli təhlili

1. 2021-ci il üzrə Şəki Kommersiya Məhkəməsinin icraatında olan 1377 işdən 60 iş (4.36%) 2020-ci ildən qalıq keçmiş, 1317 iş (95.64%) isə 2021-ci ildə daxil olmuşdur. 2020-ci ilin müvafiq hesabat dövründə isə icraatda 665 işdən 44 iş (6.62%) 2019-cu ildən qalıq keçmiş, 621 iş (93.38%) isə 2020-ci ildə daxil olmuşdur.







2. 2021-ci ildə məhkəmənin icraatında olan 1377 iş 2020-ci ildə icraatda olan 665 iş ilə müqayisə edildikdə görünür ki, 2021-ci ildə icraatda olan 712 iş (107.07%) artmışdır.

3. 2021-ci ildə daxil olan 1317 işi 2020-ci ilin müvafiq dövründə daxil olan 621 işlə müqayisə etdikdə görünür ki, 2021-ci ilin hesabat dövründə daxil olan işlərin sayında 696 işin (112.08%) artması müşahidə olunur. 2020-ci ilə qalıq keçmiş 44 iş və 2021-ciillərə qalıq keçmiş 60 işi müqayisə etdikdə görünür ki, 2021-ci ilə qalıq keçən işlər 16 iş (36.36%) artmışdır.




4. 2021-ci ilin birinci yarısında icraatda olmuş 1377 işdən 1326 işə baxılmış, 51 iş isə qalıq olaraq növbəti hesabat dövrünə keçmişdir.




5. Daxil olan iddia ərizələrindən 129 iddia ərizəsi geri qaytarılmış və ya iddianın yolverilməzliyinə görə qəbulundan imtina edilmişdir.

6. Baxılmış işlərdən 1087 (82%) işlə bağlı mahiyyəti üzrə qətnamə çıxarılmışdır, onlardan 908 (83.53%) iş üzrə iddia təmin edilmiş, 150 (13.80%) iş üzrə iddia qismən



təmin edilmiş, və 29 (2.67%) iş üzrə iddia rədd edilmişdir.




Baxılmış işlərdən 15 (1.1%) iş üzrə icraata xitam verilmişdir, 48 (3.6%) iddia baxılmamış saxlanmışdır, 17 (1.3%) iş məhkəmə aidiyyəti ilə bağlı olmuş, 4 (0.3%) iş üzrə barışıq sazişi bağlanılmışdır.

7. MPM-in 40-7-ci fəslinin tələbləri qaydasında qaydasında 0 işə baxılmışdır.
8. MPM-in 191.2-1-ci maddəsinin tələbləri qaydasında qaydasında 0 işə baxılmışdır.
9. Məhkəmə aidiyyəti məsələsinə baxılan 19 işdən 11 iş üzrə aidiyyət haqqında ərizə təmin edilərək iş aidiyyəti üzrə göndərilmişdir, 1 iş üzrə aidiyyət haqqında ərizə təmin edilməmişdir, 1 iş ərazi aidiyyəti məsələsinin həll edilməsi üçün apelyasiya instansiyası məhkəməsinə göndərilmişdir, 6 iş məhkəmələr arasında fikir ayrılığı olması əsası ilə kassasiya instansiyası məhkəməsinə göndərilmişdir.




10. 2021-ci ildə məhkəmə tərəfindən qəbul edilmiş aidiyyət haqqında qərardadlar barəsində şikayət verilməmişdir.
11. Baxılmış işlərin kateqoriyalar üzrə bölgüsü aşağıdakı kimi olmuşdur:

| BAXILMIŞ IŞLƏRIN KATEQORIYALAR ÜZRƏ BÖLGÜSÜ | İŞİN SAYI | FAİZ |
|---|---|---|
| □ Korporativ mübahisələr | 5 | 0,38% |

| | | |
|---|---|---|
| □ Əşya hüquqi münasibətlərdən, o cümlədən torpaq münasibətlərindən, əmlaka istifadə, sahiblik, mülkiyyət hüququnun müdafiəsindən irəli gələn mübahisələr | 10 | 0,75% |
| □ Müqavilə münasibətlərindən irəli gələn mübahisələr; | 329 | 24,81% |
| **a) Aşağıdakı növləri üzrə ayrılıqda göstərilməklə** | | |
| □ Alqı-satqı müqaviləsi | 67 | 5,05% |
| □ Daşınma müqaviləsi | 1 | 0,08% |
| □ Dəyişmə müqaviləsi | 0 | 0,00% |
| □ Kirayə müqaviləsi | 0 | 0,00% |
| □ İcarə müqaviləsi | 9 | 0,68% |
| □ Borc (kredit) müqaviləsi | 169 | 12,75% |
| □ İpoteka | 0 | 0,00% |
| □ Zaminlik | 1 | 0,08% |
| □ Qarantiya | 0 | 0,00% |
| □ Saxlama | 0 | 0,00% |
| □ Beh | 0 | 0,00% |
| □ Lizinq müqaviləsi | 30 | 2,26% |
| □ Podrat müqaviləsi | 0 | 0,00% |
| □ Tapşırıq müqaviləsi | 0 | 0,00% |
| □ Brokerlik müqaviləsi | 0 | 0,00% |
| □ Ticarət nümayəndəliyi müqaviləsi | 0 | 0,00% |
| □ Kommersiya konsessiyası müqaviləsi | 0 | 0,00% |
| □ Komissiya müqaviləsi | 0 | 0,00% |
| □ Saxlama müqaviləsi | 0 | 0,00% |
| □ Sığorta müqaviləsi | 0 | 0,00% |
| □ Bank əmanəti müqaviləsi | 0 | 0,00% |
| □ Bank hesabı müqaviləsi | 0 | 0,00% |
| □ Birgə əməkdaşlıq müqaviləsi | 0 | 0,00% |
| □ Barışıq razılaşması haqqında müqavilə | 0 | 0,00% |
| □ Mövcud borcun etirafı haqqında mücərrəd müqavilə | 0 | 0,00% |
| □ Digər müqavilələr | 52 | 3,92% |
| **b) Müqavilənin etibarsızlığı** | 0 | 0,00% |
| □ Hakimiyyətdən sui-istifadə nəticəsində; | 0 | 0,00% |
| □ Aldatma; | 0 | 0,00% |
| □ Zorakılıq və hədə təsiri altında; | 0 | 0,00% |
| □ Bir tərəfin nümayəndəsinin digər tərəflə pis niyyətlə razılığa gəlməsi və ya şəxsin ağır vəziyyətə düşməsi; | 0 | 0,00% |
| □ Vacib əhəmiyyətli yanılma nəticəsində; | 0 | 0,00% |

| | | |
|---|---|---|
| □ Uydurma əqd; | 0 | 0,00% |
| □ Yalan əqd; | 0 | 0,00% |
| □ Səlahiyyətsiz şəxsin bağladığı əqd; | 0 | 0,00% |
| □ Hüquqi şəxsin hüquq qabiliyyətindən kənara çıxan əqd. | 0 | 0,00% |
| **c) Müqavilənin bağlanması, ləğvi və yaxud dəyişdirilməsi** | 2 | 0,15% |
| □ müqavilənin bağlanması ilə bağlı mübahisələr (oferta, aksept) | 0 | 0,00% |
| □ müqavilənin şərtlərin əhəmiyyətli dərəcədə pozulması ilə bağlı ləğvinə dair | 2 | 0,15% |
| □ müqavilənin icrasından birtərəfli imtina ilə bağlı ləğvinə dair | 0 | 0,00% |
| □ müqavilənin şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi ilə bağlı ləğvinə dair | 0 | 0,00% |
| □ müqavilənin qanunda və müqavilədə nəzərdə tutulan digər əsaslarla bağlı ləğvinə dair | 0 | 0,00% |
| **ç) Müqavilə öhdəliklərindən irəli gələn mübahisələr** | 58 | 4,37% |
| □ Öhdəliklərin xitamı ilə bağlı | 0 | 0,00% |
| □ Öhdəliklərin icra edilməməsi ilə bağlı | 0 | 0,00% |
| □ Öhdəliklərin icra edilməməsinə görə məsuliyyətlə (zərər) bağlı | 0 | 0,00% |
| □ Öhdəliklərin icrasının təminatı ilə bağlı | 0 | 0,00% |
| □ Qanundan əmələ gələn öhdəliklər üzrə mübahisələr (özgə işlərini tapşırıqsız aparma; əsassız varlanma) | 0 | 0,00% |
| □ Mülki hüquq pozuntularından (deliktlərdən) irəli gələn mübahisələr | 6 | 0,45% |
| □ Qiymətli kağızlarla bağlı mübahisələr | 1 | 0,08% |
| □ Sənaye mülkiyyəti obyektlərindən (əmtəə nişanı, coğrafi göstərici, ixtira, faydalı model və sənaye nümunəsi) istifadə və onların hüquqi mühafizəsi ilə bağlı mübahisələr | 0 | 0,00% |
| □ Təbii inhisar subyektləri (Azəriqaz, Azərsu və Azərişıq) ilə təbii qaz, su, elektrik və ya istilik enerjisindən istifadə ilə bağlı yaranan mübahisələr | 51 | 3,85% |
| □ Oyunların və mərclərin keçirilməsi ilə bağlı mübahisələr | 0 | 0,00% |
| □ Müflisləşmə ilə bağlı mübahisələr | 0 | 0,00% |
| □ Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı mübahisələr | 789 | 59,50% |
| □ Bankın öhdəliklərinin könüllü restrukturizasiyası | 0 | 0,00% |
| □ İtirilmiş sənədlər üzrə onları təqdim edən şəxsin hüquqlarının bərpa edilməsi (çağırış icraatı) | 0 | 0,00% |
| □ Vergi ödəyicisinin dövlət büdcəsinə olan borcunun ödənilməsinin təmin edilməsi üçün siyahıya alınmış əmlakın açıq hərracdan satılması | 87 | 6,56% |
| □ **Digər mübahisələr** | 46 | 3,47% |
| **Cəmi** | 1326 | |

12. Baxılmış işlərin subyekt tərkibi üzrə bölgüsü aşağıdakı kimi olmuşdur:




13. Baxılmış işlərin ümumən 142-dən (qətnamələr üzrə 117 və qərardadlar üzrə 25) apelyasiya şikayətləri verilmiş və 27 şikayət (qətnamələr üzrə 27 və qərardadlar üzrə 0) Azərbaycan Respublikası MPM-in 363-cü maddəsinə əsasən geri qaytarılmışdır.

| QƏTNAMƏLƏR ÜZRƏ APELYASİYA ŞİKAYƏTLƏRİ VERİLMİŞ İŞLƏRİN KATEQORIYALAR ÜZRƏ BÖLGÜSÜ | ŞİKAYƏT VERİLMİŞDİR | GERİ QAYTARILMIŞDIR | FAİZ |
|---|---|---|---|
| □ Korporativ mübahisələr | 3 | 2 | 66,67% |
| □ Əşya hüquqi münasibətlərdən, o cümlədən torpaq münasibətlərindən, əmlaka istifadə, sahiblik, mülkiyyət hüququnun müdafiəsindən irəli gələn mübahisələr | 4 | 1 | 25,00% |
| □ Müqavilə münasibətlərindən irəli gələn mübahisələr; | 93 | 21 | 22,58% |
| □ Vergi ödəyicisinin dövlət büdcəsinə olan borcunun ödənilməsinin təmin edilməsi üçün siyahıya alınmış əmlakın açıq hərracdan satılması | 0 | 0 | 0,00% |
| □ Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı mübahisələr | 10 | 2 | 20,00% |
| □ Digər mübahisələr | 7 | 1 | 14,29% |
| Cəmi | 117 | 27 | 23,08% |

| QƏRARDADLAR ÜZRƏ APELYASİYA ŞİKAYƏTLƏRİ VERİLMİŞ İŞLƏRİN KATEQORIYALAR ÜZRƏ BÖLGÜSÜ | ŞİKAYƏT VERİLMİŞDİR | GERİ QAYTARILMIŞDIR | FAİZ |
|---|---|---|---|
| □ Korporativ mübahisələr | 0 | 0 | 0,00% |
| □ Əşya hüquqi münasibətlərdən, o cümlədən torpaq münasibətlərindən, əmlaka istifadə, sahiblik, mülkiyyət hüququnun müdafiəsindən irəli gələn mübahisələr | 1 | 0 | 0,00% |
| □ Müqavilə münasibətlərindən irəli gələn mübahisələr; | 20 | 0 | 0,00% |
| □ Vergi ödəyicisinin dövlət büdcəsinə olan borcunun ödənilməsinin təmin edilməsi üçün siyahıya alınmış əmlakın açıq hərracdan satılması | 0 | 0 | 0,00% |
| □ Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı mübahisələr | 0 | 0 | 0,00% |
| □ Digər mübahisələr | 4 | 0 | 0,00% |
| Cəmi | 25 | 0 | 0,00% |

14. İşdə iştirak etməyən şəxslər tərəfindən Azərbaycan Respublikası MPM-in357.2-ci maddəsinə müvafiq olaraq apellyasiya şikayəti verilməmişdir.

15. Qiyabi icraat qaydasında 0 işə baxılmışdır.

16. 0 iş üzrə qiyabi qətnamə sonradan ləğv edilmişdir.

17. Məhkəmə tapşırığı qaydasında 0 işə baxılmışdır.

18. Xarici dövlətlərin məhkəmələri tərəfindən məhkəmə tapşırığı qaydasındamüraciət daxil olmamışdır.

## 3.6. 2021-ci il ərzində Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsinin icraatında olmuş işlər və onların 2020-ci il ilə müqayisəli təhlili

2021-ci il üzrə Naxçıvan MR Kommersiya Məhkəməsinin icraatında cəmi 74 iş olmuşdur. Onlardan 6 iş 2020-ci ildən qalıq keçmiş, 68 iş isə 2021-ci il ərzində daxil olmuşdur.

2020-ci ilin müvafiq dövrü ilə müqayisədə ümumən icraatda olan iş sayında 18,5 %-lik azalma olmuşdur. Belə ki, 2020-ci il ərzində Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin icraatında kommersiya mübahisələrə dair iş sayı ümumilikdə 80 olmuş, onlardan 7 kommersiya mübahisələrə dair iş 2019-cu ildən qalıq keçmişdir. 2021-ci il ərzində Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin icraatında olan iş sayı 6 iş azalmışdır.




2021-ci il ərzində icraatda olmuş ümumi işlərdən 71 kommersiya mübahisəsinə dair işə mahiyyəti üzrə baxılmış, 3 kommersiya mübahisəsinə dair iş isə qalıq olaraq növbəti ilə keçmişdir. Daxil olan iddia ərizələrindən 22-i geri qaytarılmış və 5-i iddianın yolverilməzliyinə görə qəbulundan imtina edilmişdir.

Beləliklə, ötən illə müqayisədə ayrıca götürülməklə qalıq keçən işlərin sayında və daxil olan işlərin sayında azalma baş vermişdir. Belə ki, 2020-ci il üçün Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin icraatına Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsindən 7 iqtisadi mübahisəyə dair iş 2019-cu ildən qalıq keçmiş, 2021-ci il üçün Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin icraatına 6 kommersiya mübahisəsinə dair iş isə 2020-ci ildən qalıq keçmiş, 2021-ci il üçün qalıq keçən iş sayında 1 iş azalmışdır.

2020-ci il ərzində Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin icraatına 73 kommersiya mübahisəsinə dair iş, 2021-ci il ərzində isə 68 kommersiya mübahisəsinə dair iş daxil olmuşdur. Məhkəmənin icraatına daxil olan iş sayında ötən ilin müvafiq dövrü ilə müqayisədə 5 iş azalmışdır.




2021-ci il ərzində baxılmış işlər üzrə yekunlaşma aşağıdakı kimi olmuşdur: 38 işə baxılaraq mahiyyəti üzrə qətnamə çıxarılmışdır; 35 iş üzrə iddia təmin edilmiş (əmr icraatı qaydasında baxılmış işlərdə daxil olmaqla), 1 iş üzrə iddia qismən təmin edilmiş, 2 iş üzrə iddia rədd edilmişdir, 2 iş üzrə icraata xitam verilmişdir, 2 iş üzrə iddia baxılmamış saxlanmışdır.

2021-ci il ərzində Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsində Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin XL-VII fəslinin tələbləri qaydasında işlərə baxılmamışdır.

2021-ci il ərzində Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsində Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 191.2-1-ci maddəsinin tələbləri qaydasında işlərə baxılmamışdır.

Məhkəmə aidiyyəti qaydasında 2 işə baxılmışdır: onlardan 2 iş məhkəmələr arasında fikir ayrılığı olması əsası ilə kassasiya instansiya məhkəməsinə göndərilmişdir.

2021-ci il ərzində Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsində aidiyyət haqqında qərardadlar barəsində şikayət verilməmişdir.

## 2021-Cİ İL ƏRZİNDƏ DAXİL OLMUŞ İŞLƏRİN KATEQORİYALAR ÜZRƏ BÖLGÜSÜ

| İDDİALARIN KATEQORİYALARI FAİZİ | İŞ SAYI | |
|---|---|---|
| Mülkiyyət hüququnun müdafiəsindən irəli gələn mübahisələr | **11** | **13,7 %** |
| Müqavilənin etibarsızlığı üzrə | **1** | **1,2 %** |
| Alqı-satqı müqaviləsi | **4** | **5 %** |
| Borc müqaviləsi | **2** | **2,5 %** |
| Kredit müqaviləsi | **1** | **1,2 %** |
| Lizinq müqaviləsi | **2** | **2,5 %** |
| İcarə müqaviləsi | **1** | **1,2 %** |
| Digər müqavilələr | **0** | **0 %** |
| Vergi ödəyıcisı olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı mübahisələr | **33** | **41,5 %** |
| Digər kateqoriyalar | **19** | **23,7 %** |

## 2021-Cİ İLDƏ DAXİL OLMUŞ İŞLƏRİN SUBYEKT TƏRKİBİ ÜZRƏ BÖLGÜSÜ

| SUBYEKT TƏRKİBİ | SAY |
|---|---|
| Fərdi sahibkar | 6 |
| Kommersiya hüquqi şəxs | 6 |

| | |
|---|---|
| Dövlət orqanı | 38 |
| Fərdi sahibkarlar və kommersiya hüquqi şəxsləri arasında yaranan mübahisələr üzrə | 24 |

2021-ci il ərzində baxılmış işlərdən ümumilikdə 5 kommersiya mübahisəsinə dair iş üzrə (4 iş üzrə çıxarılmış qətnamədən; 1 iş üzrə qərardaddan; borc müqaviləsi üzrə - 1 iş, müqavilənin etibarsızlığı üzrə - 1 iş, digər müqavilələr üzrə - 3 iş) apelyasiya şikayəti verilmişdir və müqavilənin etibarsızlığı üzrə - 1 iş üzrə verilmiş şikayət Azərbaycan Respublikası MPM-in 363-cü maddəsinə əsasən geri qaytarılmışdır.

İşdə iştirak etməyən şəxslər tərəfindən Azərbaycan Respublikası MPM-in 357.2-ci maddəsinə müvafiq olaraq kommersiya mübahisəsinə dair işlər üzrə apellyasiya şikayəti verilməmişdir.

2021-ci il ərzində Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsində qiyabi icraat qaydasında və Məhkəmə tapşırığı qaydasında işlərə baxılmamışdır.

2021-ci il ərzində Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsinə xarici dövlətlərin məhkəmələri tərəfindən məhkəmə tapşırığı qaydasında heç bir müraciət daxil olmamışdır.